

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azad torpaqlarımız: Füzulinin hüsnü ilmə-ilmə naxışlanır...



8

# Məcburi köçkün və qaçqınların hamisi



3

PREZİDENT İLHAM ƏLİYEV: "Məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi mənim ən başlıca vəzifələrimdən biridir"


SƏS

№ 087 (6770)

19 may 2023-cü il.
Qiymәti 60 qəpik


# Heç bir cəhd Ermənistanı xilas etməyəcək!



GALLUP International Association tərəfindən aparılan sorğu maraqlı nəticələri üzə çıxardı

7

## Başdan çıxan tüstü




13

## Çörəyi ver çörəkçiyə, xəstəliyi də üstəlik...



15

## Bəhruz Quliyev: "Paşinyanın əməli ilə sözü uyğun gəlmir"



6



## Qvardiolanın gizli mesajı ortaya çıxdı!

16

## Batan əmanətlərin taleyi necə olacaq?



16

# “Bu, Prezident İlham Əliyevin Azərbaycan və region üçün verdiyi dəyərli töhfədir”

## Prezident İlham Əliyev Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibini qəbul edib





Prezident İlham Əliyev mayın 18-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatunu qəbul edib. Prezident İlham Əliyev Njupuo Yap Mariatunun Azərbaycana səfərinin ölkəmizin Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əməkdaşlığının genişlənməsi işinə töhfə verdiyini və əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını qeyd etdi.

Njupuo Yap Mariatu, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Fövqəladə Hallar Nazirliyinin təşkil etdiyi əməliyyat-taktiki təlimdə fəxri qonaq qismində iştirak etməkdən məmnunluğunu bildirdi.

Heydər Əliyevin görkəmli dövlət xadimi və siyasətçi olduğunu vurğulayan Mülki Müdafiə Təşkilatının Baş katibi Prezident İlham Əliyevin ölkədə sabitliyin və dinamik inkişafın təmin edilməsi ilə onun siyasətini uğurla davam etdirdiyini dedi. Dövlətimizin başçısının regionda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində fəaliyyətini yüksək qiymətləndirdiklərini deyən qonaq qeyd etdi ki, bu, Prezident İlham Əliyevin Azərbaycan və region üçün verdiyi dəyərli töhfədir. Njupuo Yap Mariatu Azərbaycanın Türkiyədə baş verən zəlzələ zamanı göstərdiyi köməyin təşkilat tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Türkiyənin Kahramanmaraş şəhərində Azərbaycan tərəfindən 1000 evin tikintisi ilə bağlı məlumat verdi.

Qonaq qeyd etdi ki, Azərbaycan 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvü olaraq mülki müdafiə ilə bağlı məsələlərin təşviqi məqsədi daşıyan təşəbbüslərdə fəal iştirak edən ölkələrdən biridir və təşkilatın potensialının gücləndirilməsi proqramları çərçivəsində əməkdaşlığa töhfə verir. Njupuo Yap Mariatu Baş Assambleyanın 2022-ci ildə keçirilmiş sonuncu sessiyasında Azərbaycanın yenidən 4 il müddətinə İcraiyyə Şurasının üzvü seçilməsini məmnunluqla vurğuladı.

O, səfərinin əməkdaşlığımızın daha da inkişaf etməsinə və güclənməsinə təkan verəcəyinə əminliyini bildirdi.

Azərbaycan Prezidenti Vətən müharibəsi dövründə ermənilər tərəfindən mülki şəxslərimizə qarşı ballistik raketlərin atıldığını, dinc sakinlərimizin qətlə yetirildiyini, eyni zamanda, energetika obyektlərimizə də hücumların olduğunu qeyd etdi. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı yenidənqurma işləri barədə məlumat verdi.

Dövlətimizin başçısı COVID-19 pandemiyası zamanı ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına göstərdiyi dəstəyi xatırladı, bunu Azərbaycanın beynəlxalq təşəbbüslərdə fəal iştirak etməsinin daha bir nümunəsi olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Afrika ölkələri ilə sıx əməkdaşlıq əlaqələri qurduğunu qeyd etdi.

Söhbət zamanı iqlim dəyişiklikləri barədə fikir mübadiləsi aparıldı. Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

# “Azərbaycanın keçdiyi inkişaf yolu bir nümunədir”



*Azərbaycan Prezidenti İlham Əliyev Cənubi Afrika Respublikası Milli Assambleyasının sədrini qəbul edib*

Prezident İlham Əliyev mayın 18-də Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri Nosivive Mapisa-Nqakulanı qəbul edib. Dövlətimizin başçısı Nosivive Mapisa-Nqakulanın rəhbərlik etdiyi nümayəndə heyətinə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi və bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti ilə görüşməkdən və Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etməkdən şərəf hissi duyduqlarını bildirən Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə etdi.

Qonaq Ulu Öndərin 100 illiyi münasibətilə keçirilən tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, burada müxtəlif ölkələrdən nümayəndə heyətlərinin bir-biri ilə görüşməsi və fikir mübadiləsi aparması üçün də yaxşı imkanın yarandığını bildirdi.

Dövlətimizin başçısının Ümummilli Liderin siyasətini uğurla davam etdirdiyini vurğulayan Nosivive Mapisa-Nqakula Ulu Öndərin Azərbaycan tarixində müstəsna rol oynayan böyük şəxsiyyət və Lider olduğunu qeyd etdi, ölkəmizin inkişafında onun müstəsna rolunu vurğuladı. Qonaq dedi ki, Azərbaycanın keçdiyi inkişaf yolu bir nümunədir.

Prezident İlham Əliyev qeyd etdi ki, dövlətçiliyimizin qurucusu olan Ulu Öndər ölkəyə rəhbərliyə gəldiyi dövrdə Azərbaycan çox ağır vəziyyətdə idi. Məhz Ümummilli Liderin güclü iradəsi və yorulmaz səyləri nəticəsində Azərbaycan çətin vəziyyətdən çıxaraq inkişaf yoluna qədəm qoyub.

Söhbət zamanı ikitərəfli əlaqələrin genişlənməsinin vacibliyi vurğulandı, əməkdaşlıq üçün yaxşı potensialın olduğu qeyd edildi, kənd təsərrüfatı, enerji, turizm, təhsil sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Görüşdə Azərbaycan və Cənubi Afrika Respublikasının beynəlxalq təşkilatlar, həmçinin Qoşulmama Hərəkatında uğurlu əməkdaşlığı qeyd edildi.

# Azərbaycan NATO PA-nın yaz sessiyasında təmsil olunacaq

Mayın 19-dan 23-dək Lüksemburq Böyük Hersoqluğunun paytaxtı Lüksemburq şəhərində NATO Parlament Assambleyasının yaz sessiyası keçiriləcək. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, ölkəmizi bu tədbirdə Azərbaycan nümayəndə heyətinin rəhbəri, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, deputatlar Məlahət İbrahimqızı, Kamran Bayramov və Elşən Musayev təmsil edəcəklər.

NATO PA-nın yaz sessiyasında transatlantik iqtisadi münasibətlərin və dayanıqlılığın yenidən qurulması, ərzaq təhlükəsizliyi və münaqişələr, NATO-nun açıq qapı siyasətinin gələcəyi və digər mövzularda məruzələr dinləniləcək, müvafiq qərarlar qəbul ediləcək.

# Olena Kondratiuk: ”Azərbaycan çoxvektorlu xarici siyasət kursu aparır”



Ukraynanın tərəfdaş kimi suverenliyinə və ərazi bütövlüyünə hörmət edən Azərbaycan kimi bir ölkənin olması vacibdir. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycana səfərin yekunlarını şərh edərkən Ukrayna Ali Radası sədrinin müavini Olena Kondratiuk yazıb. O bildirib ki, müharibə dönəmində Azərbaycan Ukraynaya humanitar yardım göstərir və təkcə bu işlə kifayətlənmir. ”Ukraynaya dəstək Azərbaycanda insanlarla hər ünsiyyətdə də hiss olunur. Azərbaycan iki müharibədən çıxıb, güclü ordu yaradaraq ərazilərini azad edə bilib. Eyni zamanda, Türkiyə, İsrail, ərəb ölkələri kimi güclü hərbi və siyasi müttəfiqləri var. Azərbaycan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, veteranlarla bağlı sosial siyasət, hərbi və mülki reabilitasiya sahələrində təcrübəyə malikdir”, - deyə Ali Radanın sədr müavini qeyd edib. Onun sözlərinə görə, Azərbaycan Avropa İttifaqı (Aİ)ilə sıx əməkdaşlıq edərək çoxvektorlu xarici siyasət kursu aparır. Xüsusilə Cənub Qaz Dəhlizi vasitəsilə Aİ ölkələrinə ildə 20 milyard kubmetrdən çox qaz tədarük ediləcək.





# Məcburi köçkün və qaçqınların hamisi

## PREZİDENT İLHAM ƏLİYEV: "Məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi mənim ən başlıca vəzifələrimdən biridir"

**Bəli, bu gün xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir və Qalib xalq kimi qürurluyuq. Bunu Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Dəmir Yumruq" siyasəti, dəmir yumruq kimi birliyimiz, güclü ordumuzun rəşadəti, qəhrəmanlığı ilə mümkünsüzü mümkün edən 44 gün davam edən İkinci Vətən müharibəsi 30 illik torpaq həsrətinə son qoydu.**

Bəli, cəmi 44 gün bəs etdi ki, Azərbaycan tarixinin son yüzilliklərdəki axını tərsinə çevrilsin və Güney Qafqaz regionunda yeni reallıq bərqərar olsun və bu 44 gün müddətində terrorçu Ermənistanın "status-kvo"nu ürəyində qalsın. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də dəfələrlə bildiridi ki, "status-kvo" artıq yoxdur: "Status-kvo" deyilən məsələ yoxdur. Qurtardı getdi. "Status-kvo" belə olmalıdı, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu. Bax, orda, döyüş meydanında. "Status-kvo" yoxdur. Təmas xətti - yoxdur təmas xətti, yarmışıq onu. 30 ildir qurrdular bu təmas xəttini. Özü də bu bölgənin relyefi belədir ki, o, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də orada beton istehkamlar qurulub - 30 il ərzində! Yarıb keçmişik! Azərbaycan əsgərinin qabağında heç kim heç nə deyə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Deyirlər, yeni təmas xətti olacaq. Olmayacaq". Bəli, "Dəmir yumruq" birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqının birlik, güc rəmzi ilə böyük qələbə, zəfər tarixini yazdı".

Bəli, mümkünsüzü mümkün edən 44 günlük müharibə bir daha bütün dünyaya göstərdi və sübut etdi ki, o özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi! Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin videokonfrans formatında keçirilən görüşdə birgə Bəyanat imzalandı. Bu bəyanatla işğal altında olan torpaqlarımız, o cümlədən Kəlbəcər, Ağdam və Laçının bir güllə belə atmadan qaytarılması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, bütün daxili məcburi köçkün və qaçqınlarımızın öz ata-baba yurdlarına, Dağlıq Qarabağa və onun ətraf ərazilərinə qayıtması və Naxçıvan Muxtar Respublikasına quru sahəsi ilə birbaşa yolun açılması böyük tarixi hadisədir. Bu "Dəmir yumruğ"un və Azərbaycan Ordusunun gücü sayəsində baş verdi. 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu.

### BİZİM ƏSAS VƏZİFƏMİZ KEÇMİŞ KÖÇKÜNLƏRİ TEZLİKLƏ DƏDƏ-BABA TORPAQLARINA QAYTARMAQDIR

Və bu gün Ermənistanın işğalçılıq siyasəti nəticəsində qaçqın və məcburi köçkün düşmüş soydaşlarımız vəziyyətinə düşən 1 milyondan artıq azərbaycanlının həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ulu öndər Heydər Əliyevin siyasi, sosial-iqtisadi strategiyasını uğula həyata keçirən Prezident İlham Əliyevin diqqət və qayğısının göstəricisi verilən vədlərin yüksək səviyyədə həyata keçirilməinin reallığıdır. Və bu gün dünyada Azərbaycan qədər qaçqınlara diqqət yetirilmir. Bu reallığı bir anlığa beynəlxalq təşkilatların hesabatlarına diqqət yetirməklə aydın görmək olar. Rəsmi məlumata əsasən, hazırda dünyanın bütün münaqişə zonalarında 1 qaçqına 1 ildə sərf olunan ən yüksək vəsait Azərbaycandadır. Elə buna görədir ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı 2012-ci ildə Azərbaycanı özünün İcraiyyə Komitəsinə üzv seçib. İndi beynəlxalq təşkilatlar tərəfindən dinamik sosial-iqtisadi inkişaf yolunda davamlı uğurların müəllifi olan Azərbaycanın qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində gördüyü irimiqyaslı işləri dünyanın oxşar problemlə qarşılaşan əksər ölkələri üçün nümunə hesab edilir. in sözügedən istiqamətdə tədbirləri ardıcıl və məqsədyönlü şəkildə davam etdirməsinin, doğma ocaqlarından didərgin salınan soydaşlarımızın bütün problemlərinin Azərbaycan dövlətinin gündəlik qayğısına çevrilməsinin bariz ifadəsidir.

### VERİLƏN VƏDƏ SADİQLİK ÖRNƏYİ: "SİZ KÖÇKÜN DEYİLSİNİZ, BİZ SİZİ QAYTARACAĞIQ!"

Prezident İlham Əliyev qələbə zəfərindən sonra bütün çıxışlarında bildirir ki, bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və buna da nail olacağıq. "Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq!",-deyən Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır: "Məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi mənim ən başlıca vəzifələrimdən biridir. Digər tərəfdən, özəl sektor artıq sosial məsuliyyət göstərərək belə gözəl imkanlar yaradır".

Bunu Prezident İlham Əliyev Bakıda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışında deyib. Dövlət başçısı bildirib ki, ümumiyyətlə Azərbaycanda 300 mindən çox məcburi köçkün bu günə qədər mənzillərlə, fərdi evlərlə təmin olunub və onlardan təqribən 20 mini bir şirkət tərəfindən görülmüş işlər nəticəsində evlərlə təmin edilir: "Məcburi köçkünlərin problemləri ardıcıl şəkildə öz həllini tapır. Bildiyiniz kimi, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində mənim proqramımın tərkib hissəsi məhz bu məsələ idi. Söz vermişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və nəinki 5 il, 4 il ərzində biz buna nail olduq. Çox böyük uğur idi. Çünki ölkəmizin demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox yararsız vəziyyətdə yaşayırdılar, eyni zamanda, uzun illər vaqonlarda, vaqonların altında, çadırlarda yaşayırdılar. Çadır şəhərciklərinin ləğv olunması hesab edirəm ki, bizim çox böyük uğurumuzdur və indiyədək 100-dən çox qəsəbə-şəhərcik salınıb. Son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürür. Son 4-5 il ərzində neftin qiymətinin bir neçə dəfə kəskin düşməsinin şahidi olmuşuq. Buna baxmayaraq, məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur, heç bir proqramın ixtisarı nəzərdə tutulmur"...

Prezident qeyd edib ki, eyni zamanda, məcburi köçkünlərin sosial təminatı yaxşılaşır: "Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. Əlbəttə, indi dünyada bir neçə ölkədə məcburi köçkünlər vardır və bu ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar geniş vüsət alır, yeni köçkün şəhərcikləri salınır. Ancaq hesab edirəm ki, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu dəfələrlə təsdiqləyiblər. Çünki biz köçkünləri belə gözəl evlərlə təmin edirik. Evlərin həm quruluşu, həm daxili dizaynı, təchizatı göz oxşayır. Azərbaycan bu sahədə də qabaqcıl yerlərdədir və hesab edirəm ki, bu, bizim borcumuzdur, bunu biz edirik və edəcəyik".

### HEYDƏR ƏLİYEV FONDUNUN HƏYATA KEÇİRDİYİ HUMANİST XARAKTERLİ UĞURLU LAYİHƏLƏR

Məcburi köçkünlərin məişət problemlərinin həlli işində dövlətlə yanaşı, artıq özəl sektor da yaxından iştirak edir. "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi oldu. Xatırladaq ki, burada mindən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. Ən əsası isə həmin layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilib. Həmçinin, onu da qeyd etmək lazımdır ki, qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. 2017-2018-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1481 mənzil, Qaradağ rayonu ərazisindəki "Qobu Park" yaşayış kompleksinin yanında 2-ci yaşayış kompleksində 1300, Dövlət Proqramının icrası üzrə Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində 810, Pirallahı rayonunda 306, Şirvan şəhərində 685, Beyləqan rayonunda 146 ailəlik qəsəbə və yaşayış kompleksləridir.

### BİZ, HƏMÇİNİN KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRİN ÖZ DOĞMA YURDLARINA QAYIDIŞI PROSESİNƏ BAŞLAMIŞIQ

Azərbaycan Prezidenti İlham Əliyev bütün çıxışlarında, müsahibələrində dəfələrlə bildirib ki, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı üçün bütün uğurlu addımlar atılır. Dövlət başçımızın 16 noyabr 2022-ci ildə imzaladığı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" Sərəncamı da deyilənlərin göstəricisidir. Astanada keçirilən AQFET-in VI Zirvə Toplantısında dövlətimizin başçısı bildirmişdir: "Biz, həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq. "Böyük Qayıdış" adlanan proqram artıq başlayıb".

Dövlət proqramında nəzərdə tutulan tədbirlər hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcək. Sənədin əsas məqsədləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışla bağlı təsbit olunmuş 2 məqsəd: Əhalinin dayanıqlı məskunlaşması və Ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çərçivəsində müəyyən edilib. Bu məqsədlər ilk növbədə ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq, sosial xidmətlərin əhatə dairəsini genişləndirmək və əlçatanlığı təmin etmək, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək, sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək, ərazilərin kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması üçün müasir suvarma infrastrukturu formalaşdırmaq, dayanıqlı və mütərəqqi kənd təsərrüfatı təcrübələrini tətbiq etmək, "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqini təşviq etmək nəzərdə tutulur.

Qoyulan hədəflər nəzərə alınmaqla Dövlət proqramının icrası üzrə monitorinqlər keçiriləcək. Monitorinq məqsədilə tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr müəyyən edilir. İlkin nəticələr dövlət proqramının icra olunduğu dövr ərzində hər ili, aralıq nəticələr illik əsasda olmaqla 2023-cü, 2024-cü və 2025-ci illəri, yekun nəticələr isə 2026-cı ili əhatə edəcək. Sözügedən dövlət proqramı üzrə monitorinq və qiymətləndirmə Prezidentin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi" Qaydasına əsasən həyata keçiriləcək.

Bəli, dövlət başçısı İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında müharibədən ötən qısa müddət ərzində böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzur artıq doğma sakinlərini qəbul etməyə başlayıb. Çox tezliklə, bütün keçmiş məcburi köçkünlər qayıdış karvanları ilə doğma yurdlarına dönəcəklər. Yenidən o doğma torpaqlarda yaşayacaq, quracaq, abadlaşdıracaq, xoşbəxt həyat sürəcəklər. Necə ki Prezident İlham Əliyev vaxtilə, 24 dekabr 2011-ci ildə, 50 illik yubileyini Qarabağ torpağında - Ağcabədidə Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkün ailələri ilə birgə qeyd etdiyi gün onlara söz vermişdi: "...Bu, müvəqqəti yaşayış məntəqəsidir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda, hələ ki işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm...".

Bəli, artıq o gün gəlib. Məhz buna görə də, qaçqın və məcburi köçkünlər əmindirlər ki, onlar Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində doğma yurdlarına qayıdacaqlar. O gün uzaqda deyil.

**RƏFİQƏ KAMALQIZI**

# Heydər Əliyev-100

## ABŞ və Kanadada ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konsertlər keçiriləcək

***Bu əlamətdar tarixə həsr olunmuş konsertlər ABŞ və Kanadanın ən nüfuzlu konsert salonlarında, məsələn, Nyu-Yorkda "Karnegi Hall"da, Vaşinqtonda Kennedi Mərkəzində, Kral Toronto Konservatoriyasının Böyük Zalında və s. konsert salonlarında keçiriləcək.***

Bu konsertlərdə görkəmli Azərbaycan bəstəkarı Cövdət Hacıyevin Heydər Əliyevə həsr olunmuş "Onu zaman seçdi" 8-ci simfoniyası, həmçinin "Ulu Öndər" simfonik poeması səslənəcək. Bu konsertlərdə gənc, istedadlı bəstəkar Kərəm Əkbərov çıxış edəcək

Bu mədəni-tarixi konsertlərdə tanınmış dövlət xadimləri, səfirlik və diplomatik korpusun nümayəndələri, beynəlxalq media nümayəndələri iştirak edəcəklər.

Heydər Əliyev Beynəlxalq Transkontinental Festivalının baş direktoru Mikayıl Hacıyev: "Bu yaxınlarda Kanadada böyük mədəni-tarixi əhəmiyyətə malik hadisə baş verdi- Beynəlxalq Heydər Əliyev Mərkəzi - "Bəşər sivilizasiyasının dünya irsi" açıldı. Niaqara şəhərinin meri Lord Qari Boro Heydər Əliyevin anadan olmasının 85, 90 və hazırda 100 illiyinə həsr olunmuş yubiley mədəniyyət tədbirlərinin Kanadada keçirilməsinə böyük köməklik göstərərək bu mədəniyyət ocağının fəxri prezidenti oldu".

Azərbaycanın Əməkdar Mədəniyyət İşçisi, Niaqara şəhərinin əməkdar artisti, Kanada İpək Yolu Simfonik Orkestrinin baş dirijoru İsmayıl Hacıyev: "Heydər Əliyev Qara Qarayev, Cövdət Hacıyev, Fikrət Əmirov Tofiq Quliyev, Niyazi və sair görkəmli Azərbaycan bəstəkarlarının həmişə mənəvi dayağı və himayədarı olub. Heydər Əliyev XX əsrin görkəmli musiqiçilərinin və dünya mədəniyyətinin böyük xadimlərinin- D.Şostakoviç, E.Mravinski, M.Rostropoviç, M.Plisetskaya, R.Şedrin və başqalarının yaradıcılığına həmişə hörmət və ehtiramla yanaşırdı".


















Niaqara şəhərinin meri Lord Qari Boro: "Heydər Əliyev, mənim yaxşı bildiyim kimi, Azərbaycan mədəniyyətinin və incəsənətinin dirçəlişində, inkişafında və çiçəklənməsində böyük rol oynamış, milli klassik incəsənətin dünya mədəniyyət məkanına inteqrasiyasını fəal şəkildə təbliğ etmişdir".

"Muzik Niaqara" Beynəlxalq Festivalının bədii rəhbəri, beynəlxalq müsabiqələr laureatı, Kral Konservatoriyasının professoru Atis Bankas: "Heydər Əliyev Azərbaycan mədəniyyətinin və incəsənətinin dirçəlişinin və çiçəklənməsinin əsasını qoyub, Azərbaycanı dünyanın mədəniyyət mərkəzlərindən birinə çevirib. Bu gün Azərbaycan, obrazlı desək, başəriyyətin Böyük İpək Yolu üzərində yerləşən mədəniyyət xəzinəsidir. Heydər Əliyevin şanlı ənənələri bu gün beynəlxalq səviyyədə Azərbaycan Prezidenti İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən inkişaf etdirilməkdə davam edir".

Muğam Mərkəzinin direktoru Sahib Paşazadə: "Heydər Əliyev Azərbaycan muğamının böyük, qədim ənənələrinin qorunub saxlanmasına və müasir dövrdə inkişafına, milli alətlərdə gənc, istedadlı ifaçıların yetişdirilməsinə və Azərbaycan ənənəvi musiqisinin xaricdə təbliğinə böyük əhəmiyyət verirdi.

Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bu konsertlərdə istedadlı tarzən Sahib Paşazadənin iştirakı ilə tar və orkestr üçün Heydər Əliyevin təqdir etdiyi bəstəkar Azər Rzayevin "Çaxargah" simfonik rapsodiyası da ifa olunacaq".

Məşhur amerikalı bəstəkar, pianoçu və dirijor, beynəlxalq müsabiqələr laureatı, Amerika Musiqiçiləri Beynəlxalq Gildiyasının prezidenti Aleksandr Peskanov və görkəmli tar və kamança ifaçısı Cefri Verbax ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qarşıdan gələn konsert tədbirlərinin təşkilində fəal iştirak edirlər.

Aleksandr Peskanov: "Mən xoşbəxtəm ki, Bakıya səfər edə bildim və Bakı Konservatoriyasında Kamera Orkestrinin müşayiəti ilə K.Qarayev və F.Kərimovun rəhbərliyi altında piano konsertimi ifa etdim. Mən bu fortepiano konsertini təkcə qohumluq əlaqələrinə deyil, həm də Ulu Öndər Heydər Əliyevlə bölüşdüyü ümumazərbaycan mədəniyyəti və yaradıcılıq İdeyaları ilə bağlı olan Azərbaycan mədəniyyətinin və incəsənətinin iki korifeyinin bənzərsiz məhəbbət hekayəsinə həsr etdim. Heydər Əliyev Əminə Dilbazini yüksək qiymətləndirir, onun əllərini unikal şəkildə "oxuyan əllər" adlandırırdı.

Heydər Əliyev eyni ehtiramla Azərbaycan mədəniyyətinin bütün görkəmli xadimlərinə- Tahir Salahova, Ömər Eldarova, Mikayıl Abdullayevə, Tamara Almaszadəyə və bir çox başqalarına rəğbət bəsləyirdi.

Cefri Verbax: "Bu gün mən təkcə tarda və kamançada muğam ifa etmirəm, Heydər Əliyevin bizə vəsiyyət etdiyi ümumazərbaycançılıq ideyalarını, mədəni ideallarını bəyan edirəm. Mən Heydər Əliyevin sözlərini təkrar edə bilərəm ki, mən fəxr edirəm ki, mən azərbaycanlıyam, Azərbaycan ideyasına, Azərbaycan muğamına xidmət edirəm".

Və biz əminik ki, Kanadada və ABŞ-da Heydər Əliyevin 100 illiyinə həsr olunmuş qarşıdan gələn konsertlər bu ölkələrdə böyük mədəni-tarixi hadisəyə çevriləcək və ABŞ, Kanada və Azərbaycan arasında mədəni və siyasi yaxınlaşmaya xidmət edəcək, həm də Heydər Əliyevin ölməz adını Şimali Amerika qitəsində əbədiləşdirəcək".

***Mikayıl Hacıyev***
***Heydər Əliyev Beynəlxalq Transkontinental Festivalının prezidenti***
***Kanada-Azərbaycan Dostluq Evinin prezidenti***

# Səmərəsiz platformalar



Dünyada konfliktlər artıq hibrid dövrünü başa çatdırmaqdadır. İri dövlətlər başqa ölkələr üzərindən apardığı siyasəti dəyişərək qarşıdurmalarda birinci sıraya keçiblər. Cənubi Qafqaz regionu da iri dövlətlərin haqq-hesab meydanına çevrilib, deyə bilərik. İqtisadi cəhətdən zəngin olan bu bölgəni ələ keçirmək üçün aparılan "div" döyüşündən kimin qalib gələcəyini söyləmək isə nisbətən çətindir. Vəziyyət hər dəfə dəyişə bilir. Son Ermənistan-Azərbaycan münaqişəsinin 35 ili tamam olub. Bu müddət ərzində gedən qarşıdurmalarda kimlərin, hansı dövlətlərin izini görməmişik, kimlərin iç üzü açılmayıb, ölkəmizə qarşı aparılan ədalətsiz müharibədə kimlərin demokrat maskası yırtılmayıb ki? Bütün iyrəncliklərin, ikiüzlülüyün, rəzilliyin şahidi olmuşuq. Ədaləti bərpa etməkdə maraqlı olmayan, imitasiya ilə məşğul olan beynəlxalq qurumların da adları bəllidir. Amma nə etməli, əgər həmin təşkilatlar yenə də öz imiclərinə sadiqdirlərsə, niyə də biz öz işimizi özümüz görməyək? Necə ki, bunu 44 günlük müharibədə edə bildik, 26 il arxivlərdə yatan 4 qətnamənin pasını-hisini aça bildik, donuzları - erməniləri darıdan - işğal etdikləri Azərbaycan ərazilərindən "iti qovan kimi" qovduq.



Bu gün postmüharibə dövrünün ən vacib işi ilə məşğuldur Azərbaycan. Hələlik Ermənistana sülh təklif edir, elə köhnə vasitəçilərin yeni formatında danışıqlar aparır. Tərəflər gah Vaşinqtona, gah Brüsselə, gah da Moskvaya toplaşır, öz mövqelərini ortaya qoyur və növbəti danışıqlar şəhərinə yola düşürlər. Azərbaycan isə öz işindədir. Əgər "vasitəçilər"in ümidinə qalıb nəticəni gözləsəydik nə Laçın, Zabux və Sus kəndləri geri qayıdar, nə erməni separatçılarının silah daşıdığı yollar nəzarətə götürülər, nə şərti Ermənistan-Azərbaycan sərhədində vəziyyət yaxşılığa doğru dəyişər, nə Laçın rayonu ərazisində sərhər keçid məntəqəsi yaradılar, nə də Paşinyan ərazi bütövlüyümüzü tanıyardı. Fakt budur ki, bütün bunlar baş verib, vasitəçilərin iştirakı ilə aparılan danışıqlar isə...

May ayının 14-də Brüsseldə Ermənistan-Azərbaycan danışıqlarının bu platformada sayca 5-cisi baş tutdu, bundan əvvəl isə XİN başçılarının bir həftə davam edən müzakirələri Vaşinqtonda keçirildi, Rusiyada da müzakirələrin aparılması gözlənilir. Ermənistanın baş naziri Nikol Paşinyan mayın 25-də Moskvada Azərbaycan prezidenti İlham Əliyevlə planlaşdırılan görüşü açıqlayıb. Görüşdə İrəvanla Bakı arasında sülh müqaviləsinin bağlanması məsələsinin müzakirə ediləcəyi gözlənilir. "Biz Rusiya tərəfindən mayın 25-də Rusiya prezidentinin vasitəçiliyi ilə üçtərəfli sammitin keçirilməsi təklifi almışıq. Biz bu təklifi qəbul etdik", - deyə Paşinyan Ermənistan hökumətinin iclasında bildirib.

Ermənistanın baş naziri əlavə edib ki, tərkibi hələ açıqlanmayan nümayəndə heyəti ilə birlikdə Rusiya paytaxtına gedəcək. O qeyd edib ki, elan edilən məsləhətləşmələr zamanı Ermənistan və Azərbaycan tərəfindən bir-birinin ərazi bütövlüyünün tanınması məsələsi müzakirə olunacaq. Onun sözlərinə görə, bu, "ölkələr arasında sülh sazişinin mətninin yekunlaşdırılması istiqamətində mühüm addımdır".

Qeyd edək ki, mayın 14-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə görüşüb. Ermənistan və Azərbaycan rəhbərlərinin növbəti görüşü iyunun 1-də Kişinyovda Avropa Siyasi Birliyinin sammiti çərçivəsində baş tuta bilər, bundan sonra tərəflər iyulda Brüsseldə yenidən görüşə bilərlər. Bildirilir ki, təmasların məqsədi tərəflər arasında sülh müqaviləsi razılaşmasını yaxınlaşdırmaqdır. Avropa İttifaqı vasitəçilik səylərini gücləndirməzdən əvvəl iki ölkənin xarici işlər nazirləri Ararat Mirzoyan və Ceyhun Bayramovun Vaşinqtonda keçirdikləri görüş Rusiya Federasiyasında da diqqət mərkəzində olub. Moskva gizlətmir ki, bu təmaslarda Qərbin Moskva, İrəvan və Bakı arasında üçtərəfli formatı məhv etmək istəyi dayanır. Bu arada, mayın 9-da Paşinyan Qırmızı Meydanda Qələbə Paradında olarkən Ermənistan Xarici İşlər Nazirliyi Brüsseldə analoji görüşün tezliklə Rusiya Federasiyasının paytaxtında keçiriləcəyini elan etməyə tələsdi.

Mayın 8-də Aİ-nin mənzil-qərargahında gözlənilən Ermənistan-Azərbaycan danışıqları barədə ilk məlumatı "Financial Times" yaydı. Elə həmin gün axşam saatlarında Avropa Şurasının portalında Brüssel formatının bərpası ilə bağlı rəsmi açıqlama yayıldı: "Prezident Şarl Mişel Aİ-nin Cənubi Qafqazda sabitliyin təmin edilməsi və iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini irəli sürmək üçün Ermənistan və Azərbaycan liderləri ilə sıx əlaqələri davam etdirir. Liderlər 2023-cü il mayın 14-də Brüsseldə keçiriləcək üçtərəfli görüşdə yenidən görüşmək barədə razılığa gəliblər".

İndiyədək məlum idi ki, iyunun 1-də xanım Paşinyan və Əliyev Avropa Siyasi Birliyinin sammitinin keçiriləcəyi Kişinyovda Fransa prezidenti Emmanuel Makron və Almaniya kansleri Olaf Şolzla görüşəcəklər. Bununla belə, Aİ-nin vasitəçiliyi ilə əlavə diplomatik təmasların olması xəbəri sürpriz oldu. Avropa İttifaqı açıq şəkildə bildirir ki, onlar Qarabağ nizamlanması ilə daha fəal məşğul olmaq niyyətindədirlər və bundan sonra Ermənistan və Azərbaycan başçıları Brüsseldə tez-tez qonaq ola bilərlər. Bundan əvvəl Mişel artıq 2021-ci ilin dekabrında və 2022-ci ilin aprelində onlar arasında vasiteçi kimi fəaliyyət göstərmişdi. "Liderlər yerlərdə cari hadisələri müzakirə etmək üçün Brüsseldə üçtərəfli görüşləri lazım olduğu qədər davam etdirmək barədə razılığa gəliblər", - Avropa Şurasından bildirilib.



Lakin avropalı vasitəçilərin fəallaşması heç də o demək deyil ki, onların münaqişənin həlli ilə bağlı dəqiq planı var. "Politico"nun bu iddiasını ən azı iki Aİ diplomatik mənbəsi təsdiqləyib: "Gündəm hələ rəsmi olaraq müəyyən edilməyib". Avropalılar Brüsseldə aparılan danışıqları Vaşinqtonda baş tutan "vacib və müsbət sülh danışıqlarının davamı" kimi qiymətləndirlər.



Xatırladaq ki, mayın əvvəlində Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və Azərbaycanın xarici işlər nazirləri Ceyhun Bayramov dövlət katibi Entoni Blinkenin dəvəti ilə ABŞ-a uçmuşdular Danışıqlar marafonunda Ağ Evin milli təhlükəsizlik müşaviri Ceyk Sallivan da iştirak edirdi. ABŞ-ın paytaxtında Mirzoyan və Bayramovun ikitərəfli formatda ünsiyyət qurmaq imkanları da olub. Nəticədə, dövlət katibi Blinken keçmiş təmaslardan çox razı qalaraq bildirib ki, tərəflər "davamlı sülh sazişinin bağlanmasında nəzərəçarpacaq irəliləyiş əldə ediblər", onun sözlərinə görə, "nəticə, görünür, əlçatandır".

Lakin Azərbaycan lideri o qədər də nikbin deyil, Paşinyanın da ümidi azdır. Belə ki, Nikol Paşinyan 29,8 min kvadratmetr ərazisi olan respublikanın ərazi bütövlüyünün tanınması ilə bağlı qalan fundamental fikir ayrılıqlarından danışıb. Qarabağ ermənilərinin təhlükəsizliyi məsələsi isə Azərbaycanın daxili işi olduğu üçün bu barədə heç bir söhbət aparılmadığı diqqət çəkib. İlham Əliyev hətta bəyan edib ki, Bakı ilə İrəvan arasında kənar vasitəçilər olmadan birbaşa danışıqlar daha faydalı olacaq.

İndi bəzi platformadakı "vasitəçilər" sülhün əldə olunmasına "ciddi maneələrdən biri kimi" aprelin 23-də Azərbaycan tərəfinin Laçın rayonunun girişində yaratdığı keçid məntəqəsini görür. Bunu Ermənistanı Qarabağla birləşdirən yeganə yol kimi təqdim edirlər. Bakı bu addımını "silah qaçaqmalçılığını dayandırmaq" zərurəti ilə izah edib, İrəvan isə Azərbaycanı "Qarabağı blokadada saxlamaqda" və "etnik təmizləməyə hazırlaşmaqda" ittiham edib. Vaşinqton regionda yeni status-kvo ilə bağlı narahatlığını ifadə etməklə kifayətlənib, lakin bütövlükdə vəziyyətə təsir etməyib.

Bu arada Moskvada ABŞ-ın, xüsusən də Avropa Birliyinin vasitəçilik fəaliyyətinə ört-basdır edilməmiş qıcıqla yanaşılır. Həm Kremldə, həm də siyasi dairələrdə daim vurğulayırlar ki, sülh sazişinin əsasını yalnız 2020-ci ilin noyabrında Qarabağda müharibənin vasitəçiliyi ilə dayandıran Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatı ola bilər. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bu sənədi və orada sadalanan məqamları "alternativ yoxdur" adlandırıb.

Düzdür, o vaxtdan bəri tərəflər sülhün tamhüquqlu nəticəsinə yaxınlaşa bilməyiblər və Moskva bunda Qərbi günahlandırır. 2022-ci ilin oktyabrında Aİ Ermənistan və Azərbaycan sərhədinə mülki missiya göndərmək qərarına gələndə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova demişdi: "Biz bunu Avropa İttifaqının hər hansı formada müdaxilə etmək üçün növbəti cəhdi kimi görürük. Azərbaycan və Ermənistan arasında münasibətlərin nizamlanmasında ölkəmizin vasitəçilik səylərinə təzyiq etmək". Bundan əvvəl Zaxarova ABŞ və Fransanı Qarabağ nizamlanması üzrə ATƏT-in Minsk Qrupunun formatını qəsdən "tarixin zibil qutusuna göndərməkdə" günahlandırmışdı (Moskva, Vaşinqton və Paris qrupun həmsədrləri kimi çıxış edirdilər. 24 fevral 2022-ci il tarixindən sonra isə bu "qurum" faktiki olaraq funksiyasını dayandırıb).

Aİ Rusiya ilə qonşuları arasında gərginlik yaratmağa, onu sülh prosesindən kənarlaşdırmağa çalışdıqlarını inkar edir. "Biz ruslara bunun Aİ üçün bir növ geosiyasi oyun olmadığını çatdırmaq üçün əlimizdən gələni etdik. Əgər həqiqətən bir məqsədimiz varsa, o zaman birbirimizin səylərini tamamlaya bilərik və buna rəqabət kimi baxmayaq", bunu Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar martın əvvəlində Bakıya səfəri zamanı deyib. Eyni zamanda, o, Qarabağdakı rus sülhməramlılarına Laçın dəhlizi ilə daşınan yüklərin yoxlanılması üçün əlavə vasitələrlə təmin edilməsinə kömək etməyi təklif edib.

Ermənistanın baş naziri alternativ "Qərb" layihələrinin olmamasından da danışıb. Onun mayın 14-də cənab Əliyevlə danışıqlar üçün Brüsselə uçması xəbəri fonunda ekspertlər Nikol Paşinyanın mayın 9-da Moskvaya işgüzar səfərinə yeni nəzər salıblar. Əsas məqsəd Ermənistan liderinin Qırmızı Meydandakı Qələbə Paradında iştirakı olsa da, ola bilsin ki, Paşinyan Aİ-nin mənzil-qərargahına səfəri öncəsi Kremlin də qol saatını yoxlayıb. Elə həmin gün Ermənistan xarici işlər nazirinin müavini Paruyr Hovhannisyan elan edib ki, Brüssel görüşündən sonra Moskvada Nikol Paşinyan və İlham Əliyevin iştirakı ilə, həmçinin üçtərəfli formatda yeni danışıqlar aparılacaq. Ovannisyanın sözlərinə görə, Vaşinqtonda keçirilən son görüşdən "heç kim möcüzə gözləmirdi", ona görə də "iş davam etdiriləcək".

Beləliklə, danışıqlar hələ də davam etdirilir. O da aydın məsələdir ki, bütün bunlar, iddialar, oyundankənar addımlar regionda sülhü əngəlləyir. Danışıqlar üçün platformanın sayı artdıqca "Qərbi düyünləri"nin sayı da çoxalır.

**V.VƏLİYEV**

# Azərbaycanın hər bir uğuru Heydər Əliyev siyasətinin təntənəsidir

*Quba rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*




**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 18-də YAP Quba rayon təşkilatı Quba şəhər Heydər Əliyev Mərkəzində Ulu Öndərin anadan olmasının 100 illiyinə həsr olunan tədbir keçirib. Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, müdrik dövlət xadiminin əziz xatirəsini dərin ehtiramla anıblar.**







Tədbirdə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətləri misilsizdir. Onun Azərbaycana rəhbərliyinin hər iki dövrü dövlətə, xalqa xidmət nümunəsidir. Ölkəmizə rəhbərliyinin birinci dövründə Ümummilli Lider Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir.

Çıxış edən Quba rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev diqqəti Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra həyata keçirdiyi xilaskarlıq missiyasına yönəldib. Bildirib ki, taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Ümummilli Lider doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir.

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin mənalı və şərəfli həyat yolu zaman, məkan anlayışına sığmır. Ümummilli Lider xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir. Heydər Əliyevin müstəqillik dövründə ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova vurğulayıb ki, Azərbaycanın və Türk dünyasının dahi oğlu Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir. Ümummilli Liderin ideyaları Azərbaycanın dünənini, bu gününün və gələcəyinin əsasıdır. Dahi şəxsiyyətin şah əsəri olan müasir müstəqil Azərbaycan bu ideyalar əsasında ən yüksək zirvələri fəth edərək çoxəsrlik tarixinin Zəfər səhifəsini yazdı. Azərbaycanın hər bir uğuru Heydər Əliyev siyasətinin təntənəsidir.

Milli Məclisin deputatı Vahid Əhmədov Ümummilli Liderin xidmətlərinin ölçüyəgəlməz olduğunu söyləyib. Bildirib ki, Azərbaycana hansı sahədən baxsaq, böyük inkişafın, tərəqqinin şahidi olarıq. Ümummilli Lider hər bir ölkənin inkişafında iqtisadi amilin rolunu önə çəkərək bu istiqamətdə mühüm addımlar atdı. Azərbaycan bu gün də dahi şəxsiyyətin müəllifi olduğu yeni inkişaf strategiyasının uğurlarını yaşayır.

Tədbirdə Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Quba rayon komitəsinin sədri Zülfürə Baxışova, YAP Quba rayon Xınalıq ərazi partiya təşkilatının sədri İldırım Zeynalov və başqaları çıxış ediblər. Bildirilib ki, nə qədər ki Azərbaycan dövləti, Azərbaycan xalqı var, Ulu Öndər Heydər Əliyev ürəklərdə yaşayacaq!

Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə Fəxri fərmanlar, YAP sıralarına yeni qoşulan gənclərə isə üzvlük vəsiqələri təqdim edilib. Tədbirə bədii hissə ilə yekun vurulub.

# Bəhruz Quliyev: "Paşinyanın əməli ilə sözü uyğun gəlmir"



"Azərbaycan regionda sülhün təmin olunması, Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində önəmli təşəbbüslərlə çıxış edir. Beynəlxalq birlik də bu təşəbbüsləri dəstəkləyir. Əslində, 10 noyabr birgə bəyanatının imzalanmasından sonra problemin köklü həllinə tezliklə nail olunacağına ümidlər çox olsa da, Paşinyanın ikili oyunları sülhün əldə edilməsinə mane olur. Çünki erməni tərəfi 10 noyabr razılaşmasının bir sıra bəndlərini hələ də yerinə yetirməyib. Buraya qanunsuz erməni hərbi birləşmələrinin Qarabağdan tam çıxarılması, regionda bütün kommunikasiyaların açılması, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası ilə maneəsiz gediş-gəlişi təmin etmək daxildir. Rəsmi İrəvan hələ də bu yöndə öhdəliklərini yerinə yetirməyib". SİA xəbər verir ki, bunu Trend-ə açıqlamasında SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Onun sözlərinə görə, Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüş bir daha rəsmi Bakının iradəsini ortaya qoydu: "Ermənistan Brüsseldə bu formatda görüşün keçirilməsinin əleyhinə çıxış etsə də, sonda Paşinyan yenə də bu formatda iştiraka öz razılıq verməyə məcbur oldu. Paşinyan israrlı şəkildə bu formatda iştirak etməyəcəyini desə də Brüsselə gəlməli oldu. Göründüyü kimi, Fransa rəsmiləri görüşdə iştirak etmir. Bu, Azərbaycanın iradəsini ortaya qoymasını sübut edən danılmaz faktdır".

Qurum rəsmisi bildirib ki, N.Paşinyan hər dəfə hərbi təxribat və insidentlərə əl atmaqla əslində sülhün imzalanmasına maraqlı olmadığını göstərir: "Yəni Paşinyanın rəhbərliyi altında Ermənistan hökumətinin atdığı addımlar sülhü istəmədiyini, lakin bəyanatda isə sülh müqaviləsinin imzalanmasına maraqlı olduğunu göstərir. Belə olan halda aparılan təhlillərdən aydın olur ki, bəlkə, heç Paşinyan özü nə istədiyini bilmir. Məncə, bilir və onun əsas niyyəti budur ki, hakimiyyətini qoruyub-saxlasın. Bunun üçün isə ona manevr etmək lazımdır və hazırda Paşinyan məhz bununla məşğuldur.

Kreml Paşinyandan inciyir, Ağ Ev isə onu öz tərəfinə çəkmək arzusundadır. Hər iki tərəf həm vəd verir, həm də hədələyir. Ermənistan da həmişə olduğu kimi bazar daxilində satılmalı olan keyfiyyətsiz mal kimi qalıb ortada - bilmir özünü kimə və neçəyə sırısın. Sürətlə dəyişən geosiyasi dinamikanın küləkləri Ermənistan adlı dövləti quyunun dibinə sala bilər".

Ekspert bildirib ki, Paşinyan unutmamalıdır ki, torpaqlarımızın 30 ilə yaxın davam etmiş işğal dövründə Azərbaycan problemin sülh yolu ilə tənzimlənməsi üçün bütün mümkün cəhdləri etdi: "İşğala məruz qalan tərəf olmasına baxmayaraq, ölkəmiz bu məsələnin sülh yolu ilə həllinə çalışdı. Amma Ermənistanın qeyri-adekvat davranışları Azərbaycan dövlətinə əks-həmlə əməliyyatlarından başqa yol buraxmadı. 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktına imza atan N.Paşinyan bu gün sülhün təmin olunmasına qarşı çıxmaqla heç nəyə nail olmayacaq. Hazırda Ermənistanın baş naziri beynəlxalq vasitəçilər- Avropa İttifaqı, Rusiya və ABŞ arasında "manevrlər" etməyə çalışır və düşünür ki, bu addımlarla sülh prosesini uzadaraq ölkəsinin xeyrinə nəyisə dəyişdirə biləcək. Amma Paşinyan unudur ki, onun limiti də, bu kimi uğursuz cəhdləri də tükənmək üzrədir. Nəticədə uduzan yenə də Ermənistan olacaq".

***Ləman Əlizadə***

# Heç bir cəhd Ermənistanı xilas etməyəcək

## GALLUP International Association tərəfindən aparılan sorğu maraqlı nəticələri üzə çıxardı



Ermənistan əhalisinin əsas çoxluğu ölkələrinin gələcəyini, hətta ən aparıcı siyasətçilərinin sayəsində hər hansı bir uğur qazanacağına inanmadıqlarını etiraf edirlər. Məsələ ondadır ki, onlar bu qənaətə istər əvvəlki, istərsə də mövcud iqtidarların buraxdıqları kobud siyasi-idarəçilik səhvlərini dərk etdikdən sonra gəliblər. Lakin maraqlı cəhət də var. Daha dəqiq desək, hazırkı ölkə rəhbəri Nikol Paşinyan Ermənistanın siyasi xadimləri arasında hələ də liderlik mövqeyini qoruyub-saxlamaqdadır.

### Amma bu da o demək deyil ki, Ermənistan ”ağ günə” çıxır...

Belə çıxır ki, erməni cəmiyyətinin əsas hissəsinin ona olan inamı qalmaqdadır, baxmayaraq ki, əvvəlki siyasi liderlərin də tərəfdarları az da olsa qalırlar. Amma bu da o demək deyil ki, Ermənistan ”ağ günə” çıxır, əksinə, ölkə demək olar ki, özünün ən ağır və hətta mümkün süqutu dövrünə doğru irəliləyir.

Bu arada, mövzu ilə bağlı nüfuzlu GALLUP International Association sorğu mərkəzi ermənilər arasında sorğu keçirib. Sorğuya əsasən, əhalinin 1100 nəfəri bu sorğuda iştirak edib.

### 64 faiz erməni heç bir siyasətçiyə inanmır

Beləliklə, ”Daha çox hansı siyasətçiyə etimad edirsiniz?” sualına ermənilərin 64%-i ”Heç birinə” cavabını veriblər. Yeri gəlmişkən, siyahıya Nikol Paşinyanın, Ararat Mirzoyanın, Robert Koçaryanın, Aram Sarkisyanın, Serj Sarkisyanın və Alen Simonyanın adları salınıb.

Məhz bu baxımdan, Paşinyan digər rəqiblərindən az-çox fərqli şəkildə önə çıxıb. Sorğuda iştirak edənlərin 14%-i məhz ona üstünlük veriblər.

İkinci yeri isə 2%-lə Robert Koçaryan, Armen Sarkisyanın və Alen Simonyan, Ararat Mirzoyan bölüşüblər. Serj Sarqsyan isə ümumiyyətlə ”0”da qalıb.

### Paşinyanın partiyası cəmi 21 faiz əldə edə bilib

Partiyalara gəldikdə isə, ”Hansı siyasi partiyanı və ya alyansı dəstəkləyirsiniz?” sualına ermənilərin 30%-i ”Onların heç birini dəstəkləmirəm” - deyə cavab verib. Partiyalar arasındakı sorğuda Paşinyanın ”Vətəndaş sazişi” partiyası cəmi 21% dəstək alıb.

Fakt budur ki, Ermənistan cəmiyyəti artıq inamsızlıq girdabında batmaqdadır və xilaslarını ölkəni tərk etməkdə görürlər. Məhz bu reallıq yuxarıda da qeyd edildiyi kimi süqut amilini qabardır. Nə xarici təşkilatlar, nə də Ermənistanı yenidən silahlandırmağa qərar verən digər havadarlar bu reallığın qarşısını ala bilməyəcəklər.

***Afət Tahirqızı***




# Ulu Öndərin əbədiyaşar ideyaları Azərbaycana qələbələr bəxş edir

## Binəqədi rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib

**“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 18-də YAP Binəqədi rayon təşkilatı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan tədbir keçirib.**

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderin YAP Binəqədi rayon təşkilatının binası önündə ucaldılan abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad ediblər. Tədbirdə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov tədbiri giriş sözü ilə açaraq müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində böyük uğurlara imza atmasından bəhs edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev daim xalqına və dövlətinə xidmət edib, Azərbaycanın tərəqqisi uğrunda fədakarlıqla çalışıb, müstəqilliyimizin möhkəmləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün tarixi işlər görüb.

Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev bildirib ki, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xalqımız qarşısındakı xidmətləri əvəzolunmazdır. Ulu Öndər yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan dövlətçiliyi böyük təhlükələrdən xilas oldu, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı.



Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov çıxışında vurğulayıb ki, hələ SSRİ dövründə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı. Müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş Ümummilli Lider Heydər Əliyevin mənalı və şərəfli həyat yolu nəsillərə nümunədir.

Milli Məclisin deputatı Azay Quliyev çıxış edərək bildirib ki, Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə Azərbaycanın maraqlarını daim müdafiə edib, bütün dünyada nüfuzlu, uzaqgörən dövlət xadimi kimi şöhrət qazanıb. Bu gün də Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və ölkəmizi davamlı nailiyyətlərə aparır.

Milli Məclisin deputatı Kamaləddin Qafarov Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunduğunu, dövlətçiliyimizin məhv olmaq təhlükəsindən xilas edildiyini vurğulayıb. Azərbaycanın qüdrətli dövlət kimi inkişafı Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, Binəqədi rayon Ziyalılar Cəmiyyətinin sədri Asəf Zamanov qeyd edib ki, hər birimiz bugünkü firavan həyatımız və xoşbəxt gələcəyimiz üçün Ulu Öndərə borcluyuq.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov vurğulayıb ki, bu gün müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın qazandığı böyük uğurlar məhz Heydər Əliyev siyasətinin nəticəsidir. Ulu Öndərin məqsədyönlü siyasəti sayəsində ölkəmizin tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələri yazılıb. Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə Fəxri fərmanlar, YAP sıralarına yeni qoşulan gənclərə isə üzvlük vəsiqələri təqdim edilib. Tədbir bədii hissə ilə davam edib.



# Ərim evdə yoxdur

**Lalə Mehralı**

İşdən evə qayıdırdım, həyət evlərinin olduğu döngədən çıxanda bir evin qapısını döyən Azəriqaz işçilərini gördüm. Təxminən belə bir dialoq eşitdim:

-Axı biz 3-cü dəfədir gəlirik, sayğaca texniki baxış keçirilməlidir, siz də qapını açmırsınız.

-Ərim evdə yoxdur, axşam gəlin.

-Saat neçədə evdə olur?

-9-dan sonra.

-İş vaxtı olmur həmin saatlarda, necə gələk?

-İcazə vermir açmağa, aça bilmərəm.

Söhbət nə qədər uzandı, bilmirəm, mən ötdüm keçdim. Günortaçağı idi, küçədə insanlar, məktəblilər, maşınını yuyan qonşu, nəvəsini gəzdirən baba vardı, keçib gedənlər də çox idi. Həyət evlərində sayğaclar həyətdə olur, evin daxilində yox. Qadın evin yox, həyətin qapısını açmırdı, maraq üçün boylanıb baxdım, qapının gözlüyü də vardı, qapıdakıların kimliyini, küçədəki insanları oradan görmək olurdu. Yad kişilərdən qorxu, xof, hətta həyət qapısını açmağa icazə vermirdi. Ya da öz ərinin qorxusu

Yaza-yaza düşünürəm ki, bəzən qınamaq da olmur. Evdə tək olan qadınlara hücum edən, qarət, təcavüz halları yaşanan vəziyyətləri eşidirik bəzən. Amma indi günorta idi, küçə qələbəlik idi. Üstəlik, bu qədər qorxu, xof, insanlara güvənsizlik hissi psixologiyamızı da korlayır. Hər şeyə şübhə ilə yanaşırıq. Qapının gözlüyünə inanmayıb qapını açmayanlar getdikcə çoxalır. Yadıma bir tanışın başına gələn hadisə düşdü.

Ev təmizliyi ilə məşğul olan ana evinin bayır dəhlizini silərkən aralı qoyduğu qapını külək çırparaq örtür. Bayırdan qapını açmaq olmur, içəridə isə 2 azyaşlı övladı qalır . Ananın telefonu da yanında olmur, o da içəridə qalıb. Təlaşla qonşuların qapısını döyür, kömək istəyir. 2 qapı qonşusu qapını açmır, içəridən məsləhət verirlər: ”Yoldaşım yoxdur, aça bilmərəm, düşün aşağıdakı polis bölməsindən kömək istəyin”. FHN-ə zəng etməyi xahiş edən anaya verilən cavab isə dəhşətlidir: ”Yoldaşım tanımadığı nömrəyə zəng etməyə qoymur”.

Qadın bu əhvalatı danışanda boğazı qəhərlənirdi, yaş onu boğurdu: ”Mən 4 ildir o binada yaşayıram, uşaqlarımla çıxanda-düşəndə o qonşuların məni görüb, tanıyırlar. Amma çətin vəziyyətimdə mənə qapını açmadılar, heç vaxt unuda bilməyəcəyim hiss yaşatdılar mənə”.

Səs-küyə yuxarı mərtəbədəki qonşu qadın dəhlizə çıxır, ananı ağlayan görüb düşür aşağı. Tez FHN-ə zəng edir, kömək çağırır. FHN nümayəndələri gəlib həmin qadının eyvanından qapısı bağlanmış mənzilə düşüb açırlar qapını. Bütün bunlar baş verərkən digər iki qonşu mənzilin qapısı açılmır, amma onları gözlükdən güddüklərinə adım kimi əminəm.

”Çox böyük etinasızlıqdır” deyəcəksiniz, amma mən ”dəhşətli vicdansızlıqdır” deyəcəm. Bağlı qapı arxasında köməksiz vəziyyətdə qalan 2 körpə, çarəsiz qalan ana və bunu qapı dalında dayanıb gözlükdən seyr eləyən 2 vicdansız qadın. Dəhşətli deyilmi sizcə də? İnsan ehtiyat edər, tədbirli davranar, amma yerinə görə. 4 ildir tanıdığın birinə qapı açmamaq, kömək etməmək insan olmamağın göstəricisidir. İnsan küçədə köməksiz qalan pişiyə, itə belə kömək edir, nəinki insana

Kommunal xidmətlər göstərən idarələrin işçilərinə qapı açmayan, ərinin icazə vermədiyini deyən o qadını buna məcbur edən ər zehniyyəti olduqca, ona tabe olan qadınlar da olacaq. Gecə deyil, tənha yer deyil, kimsəsiz bina dəhlizinə açılan qapı deyil. Günün günorta çağı, gediş-gəlişi bol olan bir küçədə qapını açmağa qorxan qadının içindəki ər qorxusunu təsəvvür edə bilirsinizmi?

# Azad torpaqlarımız: Füzulinin hüsnü ilmə-ilmə naxışlanır...




Həyatını Azərbaycan xalqının müstəqilliyinə həsr edən Ümummilli Liderimizin ardıcılı, qürur mənbəyimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 17 oktyabr tarixdə Azərbaycan xalqına müraciətindən: "Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir".

Bəli, biz Füzuliyə qayıdırıq. Tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngin, rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub (XIII əsr) türbəsinə, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsinə, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəyə, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsinə, Qarğabazar kəndində, Şah Abbas karvansarayından yuxarı, qayanın üstündə füzulililərin Şah Abbas adlandırdığı məscidə qayıdırıq. Biz tariximizi qorumağa, gələcək nəsillərə ərmağan etməyə qayıdırıq.

## Füzuliyə qısa səyahət

Füzuli Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir.

Rayonun ərazisi 1386 km?, əhalisi isə təxminən 144 min nəfərdir. Rayonda 2 şəhər, 16 qəsəbə, 82 kənd və başqa yaşayış məntəqələri vardır. Rayon ərazisindən axan Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları Araz hövzəsinin çaylarıdır.

Bölgə inzibati ərazi vahidi kimi 1827-ci il sentyabrın 10-da yaradılmış və ilkin adı Qarabulaq olmuşdur. Rayon kimi 8 avqust 1930-cu ildə təşkil olunmuş və Qaryagin adlandırılmışdır.

1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılmışdır. Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Güneştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılmış, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilmişdir. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal-Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 kilometr aralı məsafədə yerləşən Azıx mağarasında tapılmışdır. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarladı.

Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var idi. Çox təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru qədim abidələri (XVIII-XIX əsrlər) və sair bu kimi tarixi əhəmiyyət daşıyan abidələr ermənilərin vəhşi vandalizminə məruz qalmış, məhv edilmiş, yandırılmışdır.

## Füzulinin yüzlərlə şəhidi, itkini, əlili var

23 avqust 1993-cü ildə Füzuli rayonu füzulililərin uzunmüddətli mübarizəsinə baxmayaraq Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edildi. 1994-cü ildə isə Horadiz əməliyyatı zamanı rayonun bir hissəsi işğaldan azad olundu. 2020-ci ilə qədər rayonun işğaldan azad olunmuş ərazilərində 13 qəsəbə və 24 kənd mövcud olub. Qəsəbələrdən 12-si ("Qayıdış" qəsəbələri) ərazidə yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilmişlər. 2021-ə qədər ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır.

1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36361 nəfər uşaq zərər çəkmiş, onlardan 155-i yetim qalmışdır. Müharibənin əsas ağırlığını Füzuli şəhəri, Yağlıvənd, Dövlətyarlı, Qacar, Divanalılar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Gövşad, Xələfşə, Mollavəli, Xatunbulaq kəndlərinin əhalisi çəkmişlər.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndlərindən Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Aşağı Əbdürrəhmanlı, 9 oktyabrda Yuxarı Güzlək, Gorazıllı, 14 oktyabrda Qaradağlı, Xatunbulaq, Qarakollu, 15 oktyabrda da Arış kəndi işğaldan azad edilib. 17 oktyabr 2020-ci ildə isə Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan tam azad olunmuşdur. Davam edən əməliyyatlar nəticəsində 20 oktyabrda Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Saracıq, 21 oktyabrda Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri, 28 oktyabrda Mandılı, 7 noyabrda Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar və Divanalılar, 9 noyabrda Qobu Dilağarda, Yal Pirəhmədli, Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu və Ələsgərli kəndləri Azərbaycan Silahlı qüvvələri tərəfindən erməni işğalından azad olunmuşdur.

## Füzuli abadlaşır ki, sakinlərini qoynuna alsın

30 ilə yaxın dövrdə daşı daş üstündə qalmayan yurd yerlərimizdəndir Füzuli. İşğaldan azad olunan bu ata-baba ocağını da digər rayonlarımız kimi abadlıq işləri qoynuna alıb. Qoynuna alıb ki, abadlaşsın, hərtərəfli şərait yaradılsın, soydaşlarımız öz doğma evlərinə tezliklə qayıda bilsinlər.

Şuşanın işğaldan azad olunmasında böyük strateji əhəmiyyətə malik olan Füzuli rayonunda dövlətimizin başçısı tərəfindən 2021-ci ilin yanvarında Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, Füzuli rayonunda hava limanının, oktyabrın 17-də-Füzulinin azad olunduğu gün isə Füzuli-Ağdam avtomobil yolunun, işğal zamanı dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in, həmçinin Azərişıq ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin təməllərinin qoyulması, işğaldan azad olunmasının ikinci ilində Füzuli Beynəlxalq Hava Limanının açılması qısa müddət ərzində Füzulinin bərpası və inkişafı üçün görülən böyükmiqyaslı işlər, sakinlərinin yurd yerlərinə tezliklə qayıdacaqlarının şərtləndirən amillərdir.

Füzulidə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı ölkəmizin başçısı demişdir: "Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir".



## Füzuli inkişafdan inkişafa: Pirəhmədli sevinci

Füzuli azad ediləndən bu günədək bərpası və inkişafı üçün görülən işlər bu gün də sürətlə davam etdirilir. Mayın 5-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfərləri çərçivəsində Pirəhmədli kəndinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına məlumat verilib ki, Pirəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 178 hektardır. Kəndə 2 min 369 nəfərin köçürülməsi planlaşdırılıb. Burada ümumilikdə 565 fərdi ev tikiləcək və hər bir evin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 70,3 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 280 fərdi evin tikilməsi nəzərdə tutulur.

Kənddə çoxfunksiyalı inzibati binanın, mehmanxana və kafe-restoranın, məscid və mərasim evinin, yanacaqdoldurma məntəqəsinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 480 yerlik orta məktəbin, 80 yerlik 2 uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, bazarın, rabitə qovşağının tikintisi planlaşdırılıb. Kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

## Füzulidən Hadruta uzanan yol...

30 ildə düşmən tərəfindən daşı daş üstündə qalmayan yurd yerlərimiz kimi, onları bir-biri ilə birləşdirən yollar da sıradan çıxmış, bəzi yerlərdə izləri belə itmişdir. Tarixi Zəfərdən dərhal sonra dövlətimizin başçısının tapşırığına əsasən yolların bərpasına başlanıldı. Füzuli-Hadrut avtomobil yolu da bərpa olunan yollarımızdan biridir ki, mayın 5-də dövlətimizin başçısının iştirakı ilə istifadəyə verildi.

Yolda görülən işlər barədə ölkə başçısına məlumat verilərək bildirilib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Ümumi uzunluğu 12,3 kilometr olan yol birinci texniki dərəcəlidir. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir. Layihəyə əsasən yolun 6,7 kilometrliyində "Qarğabazar" adlanan ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir.

## Dədəli kəndinə həyat verildi

Necə ki, 44 günlük müharibə dövründə torpaqlarımız-rayon, şəhər və kəndlərimiz bir-bir düşməndən geri alındı, Zəfərdən dərhal sonra bir-bir bərpa olunmağa başlanıb. Hansı ki, onlar arasında eləsi var ki, düşmən tərəfindən izi-tozu silinib. Füzulinin erməni vandalizminin ən çox qurbanı olan yurd yerimiz olduğunu nəzərə alsaq, Dədəli kəndinin mənzərəsini gözlərimiz önündə canlandırmaq bir o qədər çətin olmaz. Odur ki, bu kəndə yeni həyat verildi. Ölkəmizin başçısı mayın 5-də bu kəndin də təməlini qoydu.

Bildirildi ki, kəndin layihələndirilən ümumi ərazisi 314 hektardır. Bu kənddə 4495 nəfərin (1129 ailə) məskunlaşması nəzərdə tutulub. Tikiləcək 1050 fərdi evin hər birinin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Qeyd edildi ki, birinci mərhələdə Dədəli kəndində 1373 nəfərin yaşayacağı 327 fərdi ev tikiləcək.

Kənddə çoxfunksiyalı inzibati bina, məscid və mərasim evi, yanacaqdoldurma məntəqəsi, aptek, idman klubu, tibb mərkəzi, 840 yerlik orta məktəb, 100 yerlik iki uşaq bağçası, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi və kitabxana, ticarət obyektləri, bazar fəaliyyət göstərəcək.

Qeyd edək ki, Dədəli kəndi də tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət məqsədilə bu kənddə də alternativ enerjidən istifadə, istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. Kənddə tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.



## Gözoxşayan yaşayış kompleksi: 38 bina, 846 mənzil

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzulidə ötən illərdə təməli qoyulan və inşaatı Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən həyata keçirilən yaşayış kompleksində görülən işlərin gedişi ilə tanış olublar.

Məlumat verilib ki, ümumi sahəsi 8,9 hektar olan yaşayış kompleksi 38 binadan ibarətdir. Dördmərtəbəli, beşmərtəbəli, altımərtəbəli və yeddimərtəbəli binalarda ümumilikdə 846 mənzil olacaq. Onların 318-nin ikiotaqlı, 430-nun üçotaqlı, 98-nin isə dördotaqlı olması nəzərdə tutulur. İkiotaqlı mənzillərin sahəsi 54-68 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 71-109 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 92-108 kvadratmetr təşkil edəcək. Hazırda kompleksin inşası sürətlə və keyfiyyətlə davam etdirilir. Tikinti işlərinin ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Kompleksdə bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Bütün binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin ediləcək. Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək

## Füzuli şəhərinin yol və küçələri abadlaşdırılır

Mayın 5-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Şəbəkə barədə məlumat verilərək bildirilib ki, şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub. İlkin mərhələdə 18,5 kilometr yolun tikintisi planlaşdırılır. Birinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 44, ikinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 34, ümumşəhər əhəmiyyətli küçə və yolların eni 24, yerli əhəmiyyətli küçə və yolların eni isə 20 metr olacaq.

Şəhərdaxili yollarda piyadaların rahat hərəkətini təmin etmək üçün piyada yolları, ətraf mühitə dəyən zərəri azaltmaq üçün yaşıllıq zolaqları, sağlamlığa faydalı vərdişləri artırmaq üçün velosiped yolları, ictimai nəqliyyat üçün xüsusi hərəkət zolaqları yaradılacaq. Prospektlərin dördzolaqlı, küçə və yolların isə ikizolaqlı olacağı planlaşdırılır.

Füzuli şəhərində daxili yol-küçə şəbəkə sxemi və kommunikasiya xətlərinin layihəsi vahid işçi qrupu tərəfindən bütün qurumların rəyi alınmaqla hazırlanıb. Şəhərdaxili yollar inşa olunarkən piyada səkilərinin altından keçəcək elektrik, qaz, su, rabitə, kanalizasiya və yağış sularının axıdılması xətləri ilə birlikdə həyata keçiriləcək. Bu isə həm vaxta, dövlət vəsaitinin qənaətinə, işlərin optimallaşdırılmasına və yüksək səviyyədə əlaqələndirilməsinə imkan yaradacaq, habelə kommunikasiya şəbəkələrinin paralel çəkilməsi zamanı yarana biləcək problemlərin aradan qaldırılmasına imkan verəcək. Dövlətimizin başçısına və birinci xanıma Qazaxıstanın "Bi-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikintisi barədə də məlumat verilmişdir.

## 2021-ci ildə təməli qoyuldu, 2023-cü ildə istifadəyə verildi

Dövlətimizin başçısı mayın 5-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışında da iştirak edib, mərkəzi işə salıb.

Ölkənin elektroenergetika sektorunda texnoloji innovasiyaların tətbiqi və infrastrukturun rəqəmsal transformasiyasının sürətləndirilməsi istiqamətində inşa edilən Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin təməli 2021-ci il oktyabrın 17-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Açılış zamanı bildirilib ki, mərkəzin elektrik təchizatı üçün 110/35/10 kV-luq "Füzuli" yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib. Mərkəzin birinci mərtəbəsində birinin gücü 2500 kVA olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə rəqəmsal idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Qeyd olunub ki, rəqəmsal şəbəkələrin təməl elementi olan Rəqəmsal Yarımstansiya elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini, vahidliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Rəqəmsal yarımstansiyadan qidalanan istehlakçılar elektrik enerjisi verilişində fasilələrin yaranması barədə məlumatları onlayn qaydada əvvəlcədən ala bilirlər. Bərpaolunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası prosesi rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal yarımstansiyaya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə əlaqələndirilməsini tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir.

## Özbək xalqı adından Füzuliyə hədiyyə məktəb

Ölkələr arasında nüfuzumuzun, qarşılıqlı münasibətlərin nəticəsidir ki, bu gün Qazaxıstan və Özbəkistan Füzulinin inkişafına töhfə verməyə çalışırlar. Biz Azərbaycan xalqı olaraq bundan qürur duyur və yüksək qiymətləndiririk.

Mayın 5-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

Məlumat verilib ki, ötən il başlanılan tikinti işlərinin bu ilin dekabrında başa çatdırılması planlaşdırılır. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılacaq. Məktəbin ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, açış zolaqları, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa ediləcək. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilir.

Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

## Füzulinin perspektiv inkişafına töhfə

Bir ərazinin inkişafı tək inzibati, ictimai yaşayış binalarının, müxtəlif obyektlərin tikintisi ilə məhdudlaşmır. Ərazinin perspektiv inkişafında digər məsələlər də nəzərdə tutulur ki, onlar olmadan gələcək inkişafdan söhbət gedə bilməz. İçməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksi də onlardan biridir ki, dövlətimizin başçısı Füzuliyə səfəri çərçivəsində bu kompleksin də təməlini qoyub.

Layihə haqqında məlumat verilərək qeyd olunub ki, layihə 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində 15 subartezian quyusunun qazılması, uzunluğu 10,7 kilometr olan magistral su kəmərinin, tullantı sutəmizləyici qurğunun inşası, eyni zamanda, ümumi uzunluğu 103 kilometr olan su şəbəkəsinin qurulması və digər işlərin görülməsi nəzərdə tutulur.

Birinci mərhələdə 17 min kubmetr tutumu olan su anbarının inşası planlaşdırılıb. Bu anbar şəhər əhalisinin təxminən 80 faizini içməli su ilə təmin edəcək. İkinci mərhələdə isə Füzuli şəhərinin əhalisinin qalan 20 faizinə xidmət göstərən, tutumu 5 min kubmetr olan su anbarı inşa ediləcək.

## Uzun illərin doğma torpaq həsrəti sona çatır

Unudulmayan, bir an belə olsa, yaddan çıxmayan, həmişə qürurla xatırlanan 44 günlük Vətən müharibəsində hər dəfə dövlətimizin başçısının xalqa müraciəti ilə yeni bir qürur yaşayır, dövlət-xalq birliyinə, həmrəyliyinə nail olduğumuz üçün özümüzü xoşbəxt hiss edirdik. Torpaqlarımızın hər birinin düşməndən azad edilməsinə məhz bu birliyimizin nəticəsində nail olduğumuzu bir daha anlayırdıq.

Prezidenti cənab İlham Əliyevin tarixi müraciətindən: "Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanı öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi".

Bu gün isə azad torpaqlarımızda yerləşən rayon, şəhər və kəndlərin dövlətimizin başçısının tapşırıqlarına əsasən bərpa edilməsi, yenidən qurulması ilə fəxr edir, qürur duyuruq. Həqiqətən də çətin və təqdirəlayiq işdir. Bir ölkənin müharibə aparıb ərazilərini işğal azad etməsi və qısa müddət ərzində onlara yenidən həyat verməsi milyonlarla manat vəsait, eyni zamanda böyük zəhmət deməkdir. Odur ki, bütün bunların hər biri tarixin səhifələrinə yazılan anlar olduğu üçün qürur duyuruq. Yaxşı ki, xalqımızı 44 günlük şərəf, namus müharibəsində Zəfərə çatdıran və bu gün azad torpaqlarımızda eyni əzmlə qurub-yaradan müzəffər sərkərdəmiz, dövlətimizin başçısı var. Torpağı azad etmək bir Zəfərdirsə, onu dirçəltmək isə yeni bir Zəfərdir. Həm də düşmənə yaxın bir ərazidə...

**_Mətanət Məmmədova_**

Azərbaycanın uğurlu daxili və xarici siyasəti sayəsində dövlətçilik ənənələri möhkəmlənib, iqtisadiyyat dinamik inkişaf edib. Dövlət neft strategiyasının həyata keçirilməsi ilə yanaşı, ölkəmizdə müasir iqtisadiyyatın əsaslarının yaradılması, torpaq islahatlarının həyata keçirilməsi, sahibkarlığın inkişaf etdirilməsi, maliyyə-bank sisteminin qurulması istiqamətlərində mühüm layihələr gerçəkləşdirilib. Ölkəmizdə neft və qeyri-neft sektorunun yüksəlişi ümumi daxili məhsulun artmasına, güclü sahibkarlar zümrəsinin və orta təbəqənin yaranmasına təkan verib. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ölkənin sosial-iqtisadi inkişaf strategiyasında kənd təsərrüfatı önəmli yer tutub. Azərbaycanda aqrar sahənin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır. Bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Buna görə də paytaxt Bakıda keçirilən XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" sərgiləri məhz Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradıb. Əminliklə vurğulayaq ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistem xarakterli dərin islahatlar nəticəsində ölkəmizdə formalaşmış iqtisadi islahatlar və inkişafın Azərbaycan modeli mahiyyət etibarı ilə daha yüksək vüsət alıb.

# Aqrar sahədə yeni ixtiralar və innovativ yeniliklər






## İNNOVASİYALARDAN İSTİFADƏ GÜNÜMÜZÜN ÇAĞIRIŞIDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində keçirilən sərgilərlə



tanış olublar. Bakı Ekspo Mərkəzinin bütün mümkün pavilyonlarını və açıq sahəsini əhatə edən sərgilərdə rekord sayda milli və regional stendlər nümayiş olunur. Ümumilikdə sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər. Bildirilib ki, "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində KOBİA-nın dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər. Sərgi çərçivəsində açıq sahədə kənd təsərrüfatında istifadə olunan texnikalar nümayiş olunur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərtexnika" MMC, "Agritex" MMC, "Agromotors" şirkətlərinin və Gəncə avtomobil zavodunun texnikaları ilə tanış olublar.

Sərgi çərçivəsində "Kənd təsərrüfatında sudan səmərəli və davamlı istifadə üçün innovativ həllər", "Orqanik kənd təsərrüfatı: trendlər və inkişaf perspektivləri. Orqanik Naxçıvan brendinin təqdimatı", "Bitkiçilikdə məhsuldarlığı şərtləndirən aqrotexniki həllər və innovativ yanaşmalar" mövzularında panel sessiyalar keçirilib. Sessiyalar zamanı ölkədə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər müzakirə olunub, bu sahədə tətbiq edilən innovativ həllər və nəticələr barədə informasiya-məsləhət xarakterli məlumatlar bölüşülüb.





## MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ

Dünyada olduğu kimi, Azərbaycanda da ərzaq təhlükəsizliyinin təmin edilməsi ən vacib məsələlərdəndir. Odur ki, ölkədə aqrar sahənin inkişafı məqsədilə dövlət tərəfindən sistemli dəstək tədbirləri davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurla həyata keçirilən davamlı inkişaf strategiyasına uyğun olaraq kənd təsərrüfatı sahəsinin də inkişafında yeni mərhələ başlayıb. Belə ki, sistemli və dayanıqlı inkişafın dövlət tənzimlənməsinin mütərəqqi bir metoduna çevrilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində kənd təsərrüfatının inkişafı ilə bağlı yeni mexanizmlər tətbiq olunub. Bu baxımdan regionların sosial-iqtisadi inkişafı siyasəti çərçivəsində kənd yerlərində sosial infrastrukturun inkişafı, fermerlərin istehsal vasitələri ilə təminatının gücləndirilməsi məqsədilə "Aqrolizinq" ASC-nin yaradılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının gübrə, yanacaq və toxumla təminatının yaxşılaşdırılması üçün subsidiyaların verilməsi tədbirlərini xüsusi qeyd etmək lazımdır. Əminliklə vurğulayaq ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistem xarakterli dərin islahatlar nəticəsində ölkəmizdə formalaşmış iqtisadi islahatlar və inkişafın Azərbaycan modeli mahiyyət etibarı ilə daha yüksək vüsət alıb.

Dövlət başçısı tərəfindən "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 16 yanvar 2014-cü il tarixli Sərəncam və "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 16 aprel 2014-cü il tarixli fərmanları əsasında aqrar sektorun inkişafının prioritet hədəfləri yeni çağırışlar fonunda müəyyən edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Görülən işlərin, həyata keçirilən tədbirlərin davamı olaraq "Aqrar sığorta haqqında" dövlət başçısının məlum Fərmanına əsasən, Azərbaycan Respublikasında aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, habelə idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən "Aqrar Sığorta Fondu" qeyri-kommersiya hüquqi şəxsi yaradıldı.

Kənd təsərrüfatının inkişafında yeni ixtiralar, innovativ yeniliklər mühüm rol oynayır. Ölkəmizdə aqrar sahədə müasir texnika və texnologiyaların tətbiqi məhsuldarlığın artırılmasında əhəmiyyətli rola malikdir. İqlim dəyişikliyi və qlobal istiləşmə fonunda torpaq və su resurslarından səmərəli istifadənin təşkili aqrar sektorda innovasiya və texnologiyaların daha geniş istifadəsini zəruri edir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir. Aqrar sahələrdə innovasiyalardan istifadə günümüzün çağırışı olduğundan məhz belə sərgilər kənd təsərrüfatı məhsullarının istehsalçılarına innovativ yeniliklərlə lazımı şəkildə tanış olmağa şərait yaratmış olur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "İrəvana qayıdacağımız gün oynayacağımız ilk tamaşa "Ata vəsiyyəti" olacaq"



**Müsahibimiz C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyevdir**

***- İftixar müəllim, illərdir ki, teatrınız İrəvandan uzaqda fəaliyyətini davam etdirir. Bu illər ərzində teatrın gündəlik (təbii ki, iz buraxan an və zamanı) həyatına nələr həkk olub və bunlar necə xatirələşib?***

- Çox hadisələr... Qələmə aldığım "İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixi" adlı elmi, tarixi, publisistik monoqrafiyada iyirmi üç ildə şahidi olduğum bütün tarixi anlar öz əksini tapır. Özünəməxsus yaradıcılıq strategiyası ilə - tamaşaçılarını hər gün sənət ovsunu ilə "tilsimləmək", özünə bağlamaq üçün dünyəvi problemləri ehtiva edən, bir-birindən maraqlı, yeni səhnə əsərləri yaratmaqla, ən çox isə vətənpərvərlik ruhu aşılayan, dövlətimizin və dövlətçiliyimizin ideyalarını tərənnüm edən əsərlərə can verməklə, siyasi motivli pyeslərin səhnəyə gətirilməsi ilə, milli-ideoloji ruhu yüksəldən tamaşaların hazırlanması ilə, böyük beynəlxalq layihələr hazırlayaraq həyata keçirməklə xarici ölkələrdə öz yaradıcılıq strategiyasını təbliğat etməklə, Qarabağ və irəvançılıq ideyalarını geniş arenaya çıxarmaqla və s. kimi dinamik yaradıcılıq fəaliyyəti qurmaqla tarixiləşib...

1988-ci ildən alovlanmağa başlayan, bütün Qərbi Azərbaycanı başına alan erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə nəticəsində İrəvan Azərbaycan Dram Teatrının əmlakı əlindən alınmaqla Ermənistan SSR Mədəniyyət Nazirliyinin məqsədli şəkildə, məcburi göndərişinə əsasən, Neftçala rayonuna qastrol səfəri adı ilə birdəfəlik olaraq, sözün əsl mənasında sürgün edildi. Sürgün ona görə deyirəm ki, İrəvana dönüşünə qadağa qoyuldu və beləliklə, başı bəlalı bu fədakar sənət ocağı 1989-cu ildən Azərbaycanın paytaxtı Bakı şəhərinə deportasiya olundu. Doğma vətənindən didərgin salınmasına baxmayaraq, prinsipial şəkildə İrəvana dönərək orada - öz dədə-baba yurdunda fəaliyyətini davam etdirmək eşqi ilə yaşayan bu sənət ocağının yaradıcılıq əzminin, onun deportasiya müddətində hazırladığı tamaşalarla bədxahlarına qarşı kəskin mübarizə müstəvisinə yüksəldiyini müşahidə edəcək fədakarlıq və qəhrəmanlıqla çalışdığının şahidi olduq. Ağır gərginliklərlə daim üz-üzə qalan, lakin həmişə öz gücünə inanan, yaradıcılıq imkanlarının geniş olduğunu yaxşı bilən, sənət fəaliyyəti prinsipindən heç vaxt dönməyən, mübarizə əzmini itirməyən İrəvan Teatrı çalışdıqca özündə elə bir yaradıcılıq ruhu formalaşdırmışdır ki, bu günə qədər də həmin ruh teatr kollektivinin inkişafdan geridə qalmamasına təminat verməkdədir.





***- 1882-ci ildən fəaliyyət göstərən İrəvan Dövlət Azərbaycan Dram Teatrının keşməkeşli həyatı hər birimizə bəllidir. Zaqafqaziyada aparıcı teatrlardan birinə çevrilmiş sənət ocağının tarixində 1918-1920-ci illərdə ermənilərin İrəvanda kütləvi qırğınlar törədərkən aktyor truppasının mühacirətə üz tutması, 1948-ci il, 1988-ci il hadisələrinin buraxdığı izlər teatrın yaradıcı kollektivinə həm mənəvi, həm də psixoloji anlar yaşatmış oldu. Bütün azərbaycanlılar kimi, onlar da öz yurd-yuvalarından qovuldular. Həmin dövrlərdə teatrın özünəqayıdışı və yenidən səhnə həyatı olmasaydı, bugünkü qocaman teatrdan söz aça bilməzdik.***

- Təəssüflər olsun ki, ermənilər dəfələrlə bizə qarşı insana xas olmayan əməllər törədiblər. Bütövlükdə Qafqazda yaşayan türklərin ölümünə çalışıblar. İrəvan teatrının kollektivi də bu vəhşi əməllərdən həmişə əziyyət çəkib. Qürurla deməliyik ki, sənət ocağımız Qərbi Azərbaycanın paytaxtı İrəvan şəhərində elə bir mühitdə yaranıb ki, həmin mühit Qafqazda inkişafa qədəm qoyan milli ruhun dirçəldiyi, mədəni mühitin intibah etdiyi bir dövrə təsadüf edir. Yarandığı vaxtdan etibarən maarif və mədəniyyətin, elm və təhsilin, bədii yaradıcılıq və folklorun, eyni zamanda milli özünüdərkin oyanışına və dirçəlişinə təkan verən teatr sənətinə, yaranışı ilə bütün yaradıcılığı boyu, həm də ümumən Azərbaycan teatr sənətinin inkişafına xidmət göstərib. Bu da bir həqiqətdir ki, İrəvanda teatr sənətinin daha qədim tarixi köklərə malik olması faktına rast gəlinir. Həmin faktlara istinadən, hələ 1673-ci ildə əzəli torpağımız olan İrəvan xanlığının Sərdar sarayında oynanılan bir tamaşa Qafqaza gələn fransız səyyahı Jan Şardenin diqqətini çəkmişdir. Şarden həzz aldığı şeir, musiqi və rəqslərlə müşayiət olunan həmin tamaşanı Qərbin operasına bənzətmişdir. 1882-ci il 2 aprel tarixində, kasıb tələbələrə kömək məqsədi ilə, İrəvan şəhər məktəbinin müəllimi Məşədi İsmayıl Hacı Kazımzadənin müəllifi olduğu "Tamahkarlıq düşmən qazanar" əsərinin tamaşasını ikinci dəfə oynamaqla peşəkar fəaliyyətə başlayan İrəvan Teatrı Firudin bəy Köçərlinin Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra 1885-ci ildə İrəvan şəhərinə gəlişi ilə öz həyatında ciddi dönüş yaratdı, daha da zənginləşməyə başladı. 1903-cü ildə Yunis Nuri, Mirzə Cabbar Məhəmmədzadə, Mustafa Rəcəbov, Asif bəy Şəfibəyov və digər ziyalıların ciddi səyi ilə teatr truppası yaradılır və truppaya rəhbərlik görkəmli teatr xadimi Yunis Nuriyə həvalə olunur. Əzmkar sənət fədailərinin zəhməti nəticəsində bu sənət ocağı dirçəlməyə başladı. İrəvan Azərbaycan Teatrı çətin şəraitdə yaradıcılıq yolu keçməsinə baxmayaraq, zaman-zaman inkişaf edərək, formalaşdı, Qafqazda nüfuzlu teatrlar sırasında özünə yüksək yer tuta bildi. Çar Rusiyasının Cənubi Qafqazı işğal etməsi, ermənilərin kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına köçürülməsi, 1918-ci ilə qədər qədim Azərbaycan şəhəri İrəvanın ermənilərə güzəştə gedilməsi və sair tarixi olaylar böyük səhv idi. Bu səhv nəticəsində Vətənimizin həmin bölgəsində yaşayan soydaşlarımız bu günə qədər əziyyət çəkməkdədir...

1905-ci ildən başlayaraq dinc əhalimizə qarşı törətdikləri vəhşiliklər əlbəttə ki, İrəvan teatrının yaradıcılıq prosesinə də mənfi təsirini göstərdi. Aktyor truppası pərən-pərən olub, Cənubu Azərbaycana mühacirət etmək məcburiyyətində qaldı. 1918-ci il 31 mart hadisələri xalqımızın zəngin tarixində unudulmayan qanlı səhifədir. Bu günlərdə xalqımıza, insanlarımıza qarşı ən ağır cinayət - soyqırımı törədildi. Bizim soyqırımı adlandırdığımız belə bir cinayət ermənilər üçün yeni bir iş deyildir. 1948-1953-cü illərdə Qərbi Azərbaycan ərazisində yaşayan əhalinin deportasiyası, 1988-1994-cü illər arasında baş verən məlum hadisələr, əlbəttə ki, İrəvan mədəni mühitinin tənəzzülünə səbəb oldu. İrəvan Teatrı 1989-ci ildən başlanan, deportasiya həyatı kimi tarixə keçən müasir dövrünün çətinliklərlə əhatə olunan ilk illərində formalaşmağa çalışmasına rəğmən dirçələ bilməsə də, 2000-ci ildən etibarən öz yeni inkişaf mərhələsinə qədəm qoydu. Uğurlarla əhatələnə bilən bir məştəba yüksəldi və bu yüksəliş mərhələsi bu gün də davam etməkdədir.

***- Həmin çətin illərdə teatrın məskunlaşması, acı həyat yaşamış yaradıcı kollektivin soyuq otaqlarda hazırladıqları tamaşalar bu sənət ocağının səhifələrində necə əksinin tapır?***

- 2000-ci ildən başlayaraq teatr təməlli yaradıcılıq prosesinə start verdi. Özünün tarixinümunəvi yaradıcılıq ənənələrini bərpa etdi. Daha sonra Azərbaycan teatr sənət ocaqları ilə zəncirvari yaradıcılıq prosesini formalaşdırdı. Görkəmli teatr xadimlərini teatra cəlb etdi, onlarla yaradıcılıq ünsiyyəti qurdu. Müxtəlif mövzulu əsərlərin ərsəyə gətirilməsinə, müxtəlif səpkili tamaşaların hazırlanmasına nail oldu və nəhayətdə yeni inkişaf mərhələsinə qədəm qoydu. Sənət ocağımız gənc istedadların teatra cəlb olunmasını, bununla da yeni yaradıcı mütəxəssislərin yetişməsini təmin etmək üçün teatrın səhnəsinin yaradıcılıq bazasına çevrilməsinə rəvac verdi. Teatrımız səhnə həyatı verdiyi yüksək bədii keyfiyyətli tamaşalarla öz yaradıcılığını genişləndirir. Geniş ictimaiyyətin diqqətini cəlb etmk üçün böyük təbliğat prosesi həyata keçirir. Ərsəyə gətirdiyi tamaşalarla və həyata keçirdiyi yaradıcılıq səfərləri ilə öz arxivini zənginləşdirir. Məskunlaşdığı məkanın qeyri-qənaətbəxş olmasına, tamaşalar hazırlamaq üçün şəraitsizlikdə çalışmasına rəğmən, daim dinamik fəaliyyət prinsipini qoruyub saxlamaqla və uğurlu sənət inciləri ərsəyə gətirməklə, həmin inciləri, əsasən respublika miqyaslı qastrol səfərlərində geniş təbliğ edərək sanballı sənət ocağı olduğunu isbata yetirməsi nəticəsində böyük nailiyyətlər əldə edən və diqqət çəkən İrəvan Teatrı bu səbəbdən də 2007-ci ildə Prezident Sərəncamı ilə 125 illiyinin təntənəli şəkildə keçirilməsi zirvəsinə yüksəldi, həmin dövrdə kollektivin bir qrup sənətkarları Dövlət tərəfindən fəxri adlarla təltif olundular. 125 illik yubileyimiz həm Azərbaycanda, həm də Türkiyə Cümhuriyyətinin Manisa, İzmir, Niğdə şəhərlərində dahi Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" tamaşası əsasında "Məşədi İbadın düyünü" və müəllifi olduğum "Müstəqil vətənin memarı" tamaşa-kompozisiyası ilə qeyd edildi. Qastrol günlərində Niğdə valisi əslən Qərbi Azərbaycandan olan Gümrüz Bədər Niğdə şəhərindəki "Qızıl alma" parkının adını dəyişdirərək, "Heydər Əliyev parkı" elan etdi və parkın uca yerində Ulu öndərlər Mustafa Kamal Atatürk və Heydər Əliyevin abidələrinin ucaldılması qərarını verdi.

Ən sevindirici hadisə isə 125 illik yubiley münasibəti ilə Binəqədi rayonu ərazisində yerləşən bina ilə təmin olunmağımızdır. Ölkə Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, hazırda həmin binada təmir işləri yekunlaşmaq üzrədir.

Müstəqillik dövrümüzdə istər Ulu Öndər Heydər Əliyev, istərsə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi istiqamətində neçə-neçə sərəncamlar verilmişdir. Azərbaycan teatrları Heydər Əliyevin gətirib çıxardığı müəyyən bir mərhələdən sonra Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla geniş miqyaslı inkişaf mərhələsinə qədəm qoydu. Teatrımızın 140 illiyi tarixinin dövlət səviyyəsində qeyd olunması ilə əlaqədar 2022-ci il iyul ayının 14-də Prezident Sərəncam imzalanmışdır ki, bu da qocaman sənət ocağı İrəvan Teatrının tarixinə, məzmunlu fəaliyyətinə göstərilən diqqət və qayğının daha bir nümunəsidir.

***- Teatrın Bakı dövrünün ilk tamaşası hansı oldu?***

- Qərbi Azərbaycanda yaşayan soydaşlarımız öz yurd-yuvalarından didərgin salındıqdan sonra, İrəvan Dövlət Azərbaycan Dram Teatrının güclü repertuarı olmayıb. Truppa əsasən əvvəlki illərdə oynanılan tamaşaları bərpa etməklə məşğul olub. Teatrın Bakı dövrünün, yəni 1989-cu ilin ilk tamaşası G.Xuqayevin "Mənim qaynanam" ("Elbrus evlənir") əsəri olub.

***- Əlbəttə ki, İrəvan Dövlət Azərbaycan Dram Teatrının repertuarında Ulu Öndər Heydər Əliyev obrazının xüsusi yeri var. Heydər Əliyevin bu teatra olan münasibəti və Heydər Əliyev obrazının teatra gəlməsi "Qurtuluş dastanı"...***

- Ulu Öndər Heydər Əliyev bütün teatrlara, xüsusən də qürbət nisgilli sənət ocaqlarına - Tiflis, İrəvan və Dərbənd teatrlarının taleyinə heç vaxt biganə qalmayıb, əksinə, ali nəzərlərlə diqqət yetirib. Gürcüstan - Tiflis və Dağıstan - Dərbənd mühitində teatr sənətinin inkişafı üçün və Tiflis və Dərbənd Teatrlarının inkişafı məqsədi ilə, İrəvan Teatrının Gürcüstana və Dağıstana bir neçə dəfə genişmiqyaslı və tam təmənnasız olan, Mədəniyyət nazirliyinin maliyyə dəstəyi ilə həyata keçirilən qastrol səfərləri də həmin qayğının davamının təzahürü idi. İrəvan Teatrının istər Qərbi Azərbaycandakı - İrəvan şəhərindəki fəaliyyət dövrü, istərsə də deportasiyadakı fəaliyyət prosesi isə məhz Ulu Öndər Heydər Əliyevin qayğıları ilə hər zaman əhatələnmişdi. Hazırkı deportasiya dövründə teatrımızın dövlət statusunun özünə qaytarılması da Ümummilli Liderimizin qayğısı ilə bağlıdır.

Ardı Səh. 12

Əvvəli Səh. 11

# "İrəvana qayıdacağımız gün oynayacağımız ilk tamaşa "Ata vəsiyyəti" olacaq"

1978-ci ildə Dövlət statusu almasının əlli illiyi münasibəti ilə Bakıya dəvət olunması, bir ay Bakı tamaşaçılarını öz yaradıcılıq imkanları ilə tanış etməsi, həmin vaxtda Azərbaycanın fəxri adları ilə kollektivin təltif olunması, ali diplomlar verilməsi də məhz Heydər Əliyevin qayğısının təzahürüdür. Həmişə öz üzərində diqqətini və qayğısını hiss etdiyi Ümummilli Lider Heydər Əliyev fenomeni İrəvan Teatrının kollektivi üçün sönməz ilham qaynağı və həyat eşqi verən bir güc, qüdrət mənbəyidir. Məhz İrəvan Teatrının kollektivindəki bu sönməz və tükənməz məhəbbət, Ümummilli Liderimizin bədii obrazını öz səhnəsində əbədi yaşatmaq eşqini qoruyub saxlamaq üçün İrəvan Teatrına daim stimul verir. Bu stimul və sevgi ilə Ulu Öndər Heydər Əliyevin 90 illiyi yubileyinə həsr olunmuş, Binəqədi rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə hazırlanmış "Qurtuluş dastanı" tamaşası 10 may 2013-cü ildə Akademik Milli Dram Teatrının səhnəsində oynanıldı. Tamaşa müstəqillik tariximizə, bu tarixin ən gərgin dövrlərinə, bu tarixin ən parlaq səhifələrini yaradan Heydər Əliyevin siyasi fəaliyyətinin fenomenal cəhətlərinə həsr olunmuşdur. "Qurtuluş dastanı"ndan əvvəl biz Aqşin Babayevin "Xilaskar" əsərini tamaşaya hazırlamışıq. Daha sonra isə görkəmli şair-dramaturq Hidayətin "Burdan min atlı keçdi", müəllifi olduğum "İşıqlı, nurlu sabah", "Nurlu ömrün anları", "Qalx ayağa Azərbaycan!", "Qurtuluş" tamaşalarında Ulu Öndər Heydər Əliyevin bədii obrazı ilə istər respublika miqyasında, istərsə də respublikadan kənarda tamaşaçıların görüşünə getmişik. Hər birində də böyük rəğbət və sürəkli alqışlarla qarşılanmışıq. İrəvan Teatrında 2009-cu ildə ilk dəfə "Xilaskar" tamaşasında Ulu Öndərimiz Heydər Əliyevin bədii obrazını yaratmaq missiyası mənim taleyimə nəsib oldu. Ondan sonra hazırlanan bütün əsərlərdə Ulu Öndərimizin bədii obrazı yaradıcılıq taleyimə yazıldı. "Xilaskar"ın hazırlanmasına törədilən qıcqanclıq maneələrinə baxmayaraq, həmin tamaşanı biz ümumən əlli üç dəfə Azərbaycanın, eləcə də, Türkiyənin, Gürcüstanın və Dağıstanın müxtəlif səhnələrində oynadıq. Hər oyundan sonra, həm baş qəhrəmanın ifaçısı olaraq mənim, həm də teatrın kollektivinin fəxri fərmanlarla təltif olunduğu bu möhtəşəm tamaşa hər dəfə tamaşaçıların böyük sevgisi ilə qarşılanırdı. "Xilaskar" tamaşası ilə Şota Rustaveli adına Gürcüstan Dövlət Dram Teatrının böyük səhnəsində açılış etdik. Gürcüstanın eks-Prezidenti, Ulu Öndər Heydər Əliyevin yaxın dostu Eduard Şevardnadze səhnə arxasına gələrək, kollektivimizi şəxsən təbrik etdi, tamaşa haqqında ürək sözlərini dedi: "Nə yaxşı ki, siz Heydər Əliyevin obrazını səhnəyə gətirmisiniz. Heç bir tərcüməyə ehtiyac duyulmayan bu tamaşada hər şey aydınca anlaşılırdı. Tamaşaya baxarkən mən sanki dostumu yenidən gördüm. Gözlərim önündə çox hadisələr canlandı. Siz isə mükəmməl oynayırdınız. Heydər Əliyevə xas olan cizgilər, jestlər, yeriş, duruş, manera elə bil özüdür. səsiniz isə unikaldır. Dostumun səsi ilə birə birdir". Bu sözlərlə E.Şevardnadze qolunu boynuma doladı...

Teatrın bu layihəsində diqqəti cəlb edən ən yeni cəhət Ulu Öndərin bədii obrazının dolğunluqla, bədii vüsətlə canlandırılmasında idi. Cəsarətlə demək olar ki, bu tamaşa milli teatrımızın tarixində yeni səhifədir. Hidayətin "Burdan min atlı keçdi" dramında isə Ulu Öndərin obrazı Heydər Əliyevçilik - Azərbaycançılıq ideyası ətrafında öz bədii mücəssiməsini tapır. Tale belə gətirdi ki, bu tamaşada da Ulu Öndərimizin bədii obrazının yaradıcısı kimi onun hisslərinin, duyğularının, yüksək insani keyfiyyətlərinin, həm övladlıq, həm valideyinlik missiyasının, həm sərkərdəlik qüdrətinin yaşantılarını ifa etmək, xalqı, milləti yolunda yorulmadan, əzmlə apardığı fəaliyyətində gərgin situasiyalara qarşı mübarizəsini məhz səhnədən təcəssüm etdirmək şərəfi nəsibim oldu. Əsərin müəllifi Heydər Əliyev obrazını erməni şovinistləri ilə daha gərgin, daha təhlükəli mübarizələr fonunda, həm də hələ o illərdə xalqımız üçün başlanan və gələcəkdə torpaq iddiaları adı altında soyqırım fəlakətlərinin, əzəli yurd yerlərimizdən deportasiyaların o dəhşət və vəhşətlərini öz iti ağlı, uzaqgörən siyasəti ilə duymasını çox böyük dərinliklə çatdırır. Tamaşa boyu zamanın, tarixin, dövrün konkret anı, məqamı, zamanın məhvəri öz predmet ifadəsini və obrazını tapa bilir. Bu obrazda başlıca məna və vurğu - şəxsiyyət və xalq, öndər və millət və onlar arasındakı münasibətlərin ifadə etdiyi tarixi qanunauyğunluqlardır.

Heydər Əliyev fenomeninə Aqşin Babayevin də, Hidayətin də şəxsimin də yaradıcılıq münasibəti o parlaq şəxsiyyətin mükəmməl obrazının cəlbedici xüsusiyyətindən qaynaqlanır. Təsadüfi deyil ki, İrəvan Teatrı 140 illiyi mövsümündə, əsərin baş qəhrəmanının Ulu Öndərimiz Heydər Əliyev olduğu "Burdan min atlı keçdi" və "Qurtuluş", "Nurlu ömrün anları" tamaşaları yeni redaktədə təkrar olaraq hazırlandı və tamaşalar anşlaqla oynanılır. Deməliyəm ki, bu əsərlər repertuarımızın ən aktual və baxımlı sənət nümunələrindəndir.



***- Qərbi Azərbaycan deyəndə qədim Azərbaycan torpağı İrəvan göz önünə gəlir. Dərələyəz, Zəngibasar, Vedibasar, Göyçə, Dərəçiçək, Qərbi Zəngəzur, Mehri, Ağbaba bölgələri. O yerlər bizi gözləyir. Qərbi Azərbaycana, İrəvana qayıdacağıq. İftixar müəllim, o torpağa ayaq basanda teatrın rəhbəri olaraq ilk sözünüz nə olacaq? Hansı tamaşa oynanılacaq?***

- Adlarını çəkdiyiniz o müqəddəs yurd yerlərimizi həmişə ürək göynərtisi ilə xatırlayırıq. O əziz yerləri biz heç vaxt ermənilərə buraxa bilmərik. Biz bütün ruhumuzla ömrümüzün sonuna qədər həmin doğma yudlarımıza qayıtmaq üçün mücadilə edəcəyik. Nə xoşbəxtik ki, ölkə rəhbərimiz də məhz belə mövqedədir və qarşımızda bu istiqamətdə aydın və cəsarətli imkanlar yaradır. Qərbi Azərbaycanı özündə ehtiva edən, hazırda fəaliyyətini Bakıda davam etdirən yeganə sənət ocağı olan İrəvan Dövlət Azərbaycan Dram Teatrı öz varlığı və yaratdığı sənət nümunələri ilə "Qərbi Azərbaycanlıların Qayıdış Konsepsiyası"nın icrası kontekstində və tarixi ədalətin bərpa olunması yolunda aparılan geniş təbliğat işlərinin həyata keçirilməsi funksiyasının reallaşmasını təlqin edir. Prezident İlham Əliyevin qarşıya qoyduğu missiyanın yerinə yetirilməsi istiqamətində qocaman sənət ocağı - İrəvan Teatrı Qərbi Azərbaycan həqiqətlərini öz varlığında və fəaliyyətində yaşadır və gələcəyə daşıyır. Azərbaycan üçün hazırda həyati əhəmiyyətli prioritet məsələ məhz əlbəttə ki, Qərbi Azərbaycana qayıdış məsələsidir. Azərbaycanlıların müxtəlif zamanlarda Qərbi Azərbaycandan zor gücünə çıxarılması və həmin ərazilərin erməniləşdirilməsi taleyimizin acı həqiqətləridir. Əzəli torpaqlarımıza qayıdış həllini gözləyən taleyüklü, ciddi problemdir. Biz, Azərbaycanın bugünkü inkişaf zamanında və siyasi meydandakı yüksək mərhələyə ucalmış mövqeyi istiqamətində özünün gələcək taleyini - yaradıcı fəaliyyətini İrəvanda davam edəcəyinə bir həqiqət kimi baxır və heç şübhə etmirik ki, belə gedişlə İrəvana dönüş həqiqəti öz həllini tapa biləcəkdir. İrəvan Azərbaycan Teatrı, əlbəttə ki, İrəvana qayıdacaq və yəqin ki, ilk sözümüz "Yaşasın Vətən!.. Vətən yaşasın!" ifadələri olacaq. İlk oynayacağımız tamaşa isə, qismət olsa, müəllifi olduğum "Ata vəsiyyəti" əsəri olacaq.

***- Bu gün 140 ildən artıq fəaliyyəti olan teatrda əhvali-ruhiyyə necədir?***

- İrəvan Azərbaycan Dram Teatrının 140 ildən artıq qədim tarixinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, teatrın yaradıcılıq potensialının məzmun və mahiyyətində xalqımızın sənət sərvətini yüksək miqyasda inkişaf etdirib qorumaqla yanaşı, eyni zamanda, vətəndaşlıq mövqeyindən və milli mənafedən çıxış etmək durur. Bu teatrın kollektivi bütün yaradıcılıq tarixi boyu - həm Qərbi Azərbaycandakı fəaliyyəti dövründə, həm də hazırkı deportasiya həyatındakı fəaliyyəti zamanı bütün gücü ilə qoruyub saxladığı özünəməxsus ənənələrinin tərkib hissəsindən biri olan səmimi vətənpərvərlik missiyası ilə mənsub olduğu xalqına, torpağına, millətinə, dövlətinə və dövlətçiliyinə, Azərbaycan teatr sənətinin inkişaf etdirilməsinə vicdanlı xidmət göstərməklə nümunəyə çevrilə bilmişdir. Kollektiv müxtəlif beynəlxalq layihələrlə, dəfələrlə Türkiyə Cümhuriyyətində, Gürcüstan Respublikasında, Rusiya Federasiyasında səfərlərdə olmuşdur. 2011, 2013, 2016, 2018-ci illərdə Türkiyə Cümhuriyyətində geniş miqyaslı qastrollar həyata keçirmişik. Səfərlərdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası çərçivəsində türk yazarı Zehni Papaqçının "Soyqırımı abidəsinin dastanı", müəllifi olduğum "Nurlu ömrün anları", "Soyqırımı tarixinin dastanı", türk yazarları D.Çizməli və P.Çələbioğlunun "Cümhuriyyətin ilk sədası", A.Babayevin "Xilaskar" tamaşaları ilə Türkiyə Cümhiriyyətinin İğdır, Ərzurum, Kars, Ankara, İzmir, Manisa, Muğla, İstanbul, Amasiya, Ədirnə, Çanaqqala, Samsun, Gerasun, Trabzon şəhərlərində uğurla çıxışlar etmişik. 2023-cü ilin iyun ayında "Heydər Əliyev ili" və Türkiyə Cümhuriyyətinin yüzüncü ildönümü çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Türkiyə Cümhuriyyəti Anadolu Aydınlar Ocağının birgə dəstəyi ilə "Mustafa Kamal Atatürk və Heydər Əliyev zirvəsi" devizi altında D.Çizməli və P.Çələbioğlunun "Cümhuriyyətin ilk sədası" tamaşası ilə növbəti səfərə hazırlaşırıq. Bu səfər həm də Prezident İlham Əliyevin "Qərbi Azərbaycanlıların Qayıdış Konsepsiyası"na töhfə vermək missiyası ilə həyata keçiriləcəkdir. İstər regionlara səfərlər, istərsə də hər hansı xarici ölkələrdəki çıxışlar teatr kollektivi üçün mədəniyyətin təbliği, tanıdılması, sənətkarlıq səviyyəsinin nümayişi olmaqla yanaşı, həm də teatr kollektivinin özünütəsdiqi və məsuliyyəti anlamını daşıyır. Heç bir teatr öz divarları arasında inkişaf edə bilməz. Teatrın, səhnə sənətinin inkişafı, truppanın yaşaması onun başqa səhnələrdə oynadığı tamaşalarda formalaşır. Biz bu istiqamətdə daim çalışırıq. İrəvana dönmək eşqini hər zaman özündə yaşadan İrəvan Teatrı heç vaxt təkcə sənət məkanı kimi fəaliyyətini məhdudlaşdırmamışdır, həm varlığı ilə, həm də yaratdığı vətənpərvər ruhlu nəhəng tamaşalarla, torpaqlarını zəbt etmiş və onu isti yurd-yuvasından didərgin salmış düşməninə qarşı qəhrəmancasına mübarizə mövqeyində dayanmışdır. İnanıram ki, bu mövqe İrəvan Teatrı üçün hər zaman prioritet məsələ kimi aktiv qalacaqdır və kollektivimiz ölkə başçısının apardığı uğurlu siyasət sayəsində, respublikamızda gedən bugünkü parlaq inkişafın sabahımıza apardığı işıqlı yolda üzərinə düşən sahədə hər zaman öz işini aktiv fəaliyyət prinsipləri üzərində davam etdirəcəkdir. Hazırda kollektivimizdəki bu ruh bizi daim motivasiya edir.

***Müsahibəni apardı:***
***Zümrüd BAYRAMOVA***

# Başdan çıxan tüstü

Ərzaq mağazalarında ən bahalı məhsul siqaretdir, kilosu 200-500 manat civarındadır

**Gördüyünüz bu siqaret (aşağıdakı fotoya bax) ən ucuzlardan biridir- 2 manat 40 qəpik. Çəkisi 14 qramdır. Bunun azı 4 qramı qutusudur. Tütünün 10 qramı 2,4 manatdırsa, deməK siqaret istehsalçıları tütün məmulatının kq-nı istehlakçılara 240 manatdan satmış olur. Bu ərzaq mağazalarında kq hesabı ilə ən bahalı məhsul deməkdir. Hətta ən möhtəşəm və möcüzəli qida olan balın belə kq-i 30 manatdır, yəni tütündən 8 dəfə ucuzdur.**




## Ən gəlirli biznes- siqaret istehsalı: 50 qat qazanc

Tütünün dünya bazarında tonu orta qiymətlə 5-6 min dollar cıvarındadır. Yəni, kq-I 8-10 manata başa gəlir. Tütün məmulatının qablaşdırılmış şəkildə satışının kq hesabı ilə 200-500 manat arasında olduğunu nəzərə alsaq, burada qazanc ortalama 30-40 qatdır.

1 kq yerli tütünün alış qiyməti maksimum 1 manat, 1 kq tütün məmulatınının maya dəyəri bütün xərclər nəzərə alınmaqla maksimum 10 manat ola bilər. Yəni, yerli tütündən istifadə halında belə siqaretin indiki qiymətləri ilə hər kq-dan 20-30 qat qazanc əldə olunur.




Burada hökumətin tütün məmulatlarına qoyduğu yüksək aksiz rüsumu və vergilərin də böyük təsiri var. Siqaret firmalarının özünün neçə qat qazancı da. Demək, istehlakçılar adi ot bitkisini qutulaşdırılmış halda qızıl qiymətinə alırlar. Bu halda istifadəçilərin ağzından çıxan tüstüdən çox, "başından tüstü çıxır". Üstəlik, siqareti bahalaşdırmaq heç də onun istifadəsin qarşısını almır, sadəcə siqaret çəkənlər daha artıq xərcə düşürlər.

Siqaret firmalarının analoqu olmayan hoqqalarından biri də budur ki, eyni marka və eyni tütünün kiçik qutuda olanı böyük qutuda olanı ilə eyni qiymətdədir. Halbuki, kiçik (nazik) qutuda olan tütün, iri (qalın) qutuda olan tütündən 2 dəfə azdır. Bu deməkdir ki, siqaret istehsalçıları, eyni malı 2 dəfə daha az çəkidə sataraq 2 dəfə daha çox pul qazanırlar. Bu, normal izahı olmayan biabırçılıqdır.

Son illərdə yerlü tütün istehsalı ilə yanaşı, yerli siqaret istehsalı da xeyli artıb. Xaricdən siqaret idxalı 2020-də 2019-a nisbətən 3,5 dəfə azalıb. Amma əvvəllər siqaretləri xaricdən alanda 2 dəfə daha ucuz idi, yerli siqaret fabrikləri işə başlayandan sonra qiymətlər 2 dəfə artdı. Biz niyə yerli tütünçülüyü məhv edib xaricdən tütün alırıq və qızıl qiymətinə əhaliyə satırıq ki? Həm ölkə buradan xeyli pul itirir, həm də əhali bu məhsulu 10 qatına almış olur. Siqaret firmaları istədiyi vaxt heç bir əsas olmadan qiymətləri bahalaşdırırlar. Bu sahədə çoxsaylı suallar və şübhələr var ki, hələ bunların heç birinə mətbuat aydınlıq gətirə bilmir. Heç bir jurnalist bunu araşdıra bilmir.

## Öz tütünümüz olduğu halda tütünü niyə xaricdən alırıq?

Ölkəyə hər il orta hesabla 1.7 min ton tütün idxal olunur. Həm də bu qədər nəhəng vəsaitlər xarici ölkələrə gedir. 2020-ci ildə ölkəyə idxal edilən siqar və siqaretin 75 %-i Ukraynanın, 25 %-i isə Rusiyanın payına düşüb.

Maraqlı burasıdır ki, öz tütünümüz ixrac edilir (1,7 min ton), sonra xaricdən tütün alırıq (4,7 min ton). Bu nə deməkdir? Demək şübhələr yaranır ki, keyfiyyətli olan tütünümüzü xaricə satıb, oradan keyfiyyətsiz tütün gətiririk. Özü də hansı ölkələrə (Rusiya, Belarus, Ukrayna) tütün satırıqsa, oradan da tütün alırıq. İnanılmaz bir faktdır.

Sovet dövründə respublikamızda tütünçülük güclü inkişaf edib, bu sahədən yaxşı gəlir əldə edilib. 1970-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsində aparılan araşdırma nəticəsində məlum olmuşdu ki, hazır məhsulun dəyəri baxımından, Azərbaycanın aqrar sektorunda ən rentabelli sahə tütünçülükdür. Hesab olunurdu ki, həmin dövrdəki mövcud 25 min ton istehsalı yaxın 20 ildə azı 100 min tona çatdırmaq üçün potensial var. 1980-ci illərdə isə tütün istehsalı 60 min tona çatdırılmışdı.

Tütün iqtisadi əhəmiyyətinə görə Azərbaycanda pambıqçılıqdan sonra 2-ci texniki bitki sayılırdı. Lakin Sovet İttifaqının dağılmasından sonra pambıqçılıq, çayçılıq, üzümçülük, ipəkçilik kimi yüksək gəlir gətirən sahələrlə yanaşı tütünçülükdə də tənəzzül başladı. Son 30 ildə tütün istehsalı 55 min ton azalaraq illik 3 min tona düşdü.

90-cı illərdə Dünya Bankı ölkəmizə kredit verərkən şərtlərdən biri olaraq tütünçülüyün ləğvinə çağırdılar. Səbəb kimi tütünün sağlamlığa zərərini göstərir və bunu siqaretə qarşı mübarizədə bir addım kimi qələmə verirdilər. Ona görə də, tütünçülüyə yardımlar, kreditlər ayrılmadı və bu sahədə tənəzzül başladı. Əvəzində ABŞ-da tütün istehsalı və ixracı xeyli artdı. Təbii ki bu sahədən götürülən gəlirlər də. Tütün artıq qlobal monoloyiya sahəsinə çevrilmişdi.




## Fabriklər yerli tütünü almır, GMO Amerika tütünü idxal olunur

Qlobal tütün və siqaret bazarı ABŞ-ın əlindədir. 2022-ci ildə qlobal bazarda tütün idxalının məbləği 12 milyard ABŞ dolları olub. Dünyada gün ərzində satış dəyəri təxminən 4 milyard dollar olan tütün ticarətindən illik qazanc 1 trilyona çatıb. Tütün dünya üzrə istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin 1 faizini təşkil etsə də, ən gəlirli sahələr arasında yer alır.



ABŞ kimi ölkədə siqaretə qarşı aparılan mübarizəyə baxmayaraq tütün istehsalının nəinki azalmadığını, hətta artdığını nəzərə alsaq, Dünya Bankının yuxarıda qeyd etdiyimiz ikili yanaşması şübhəli görünür. Bir çox ekspertlər ABŞ-ın tütündən yüz milyardlarla gəlir əldə etdiyini nəzərə alıb bu sahədə qlobal monopoliya yaratmaq cəhdini pisləyirlər. Bəs Azərbaycanda Dünya Bankının təşviqi və məsləhəti ilə bu sektorun tənəzzülə uğradılmasını necə başa düşmək olar?

Aydındır ki, burda belə gəlirli sahədə kiçik və böyüklüyündən asılı olmayaraq ABŞ-ın rəqiblərini sıradan çıxarmaq prosesi əsas rol oynayıb. Tütün isə çox böyük biznesdir. Ölkədə əkilən tütünün yerli siqaret fabrikləri tərəfindən alınmaması da yuxarıda qeyd etdiyimiz şübhələri gücləndirən faktorlardandır. Çünki, Azərbaycan siqaret istehsalçıları bütün xammalı xaricdən idxal edirlər. Bizim tütünün isə yerli fabriklərin almaması, əvəzində bu məhsulun Gürcüstan tərəfindən alınması maraqlı məqamdır.

Lakin qeyd etməliyəm ki burada digər səbəblərin də müəyyən qədər rolu var. ABŞ-da tütünün məhsuldarlığı yüksəkdir, çünki genetik modifikasiyaya məruz qalıb. Buna görə də, bu gün dünya bazarında onların təklif etdiyi tütün ucuz olduğundan digər ölkələrin məhsullarını sıxışdırır. Lakin Azərbaycanda tütün istehsal etmək ABŞ-dan idxal etməkdən xeyli ucuz başa gəlir.

## Tütünçülük ən gəlirli sahələrdən biri ola bilərdi

Hazırda Azərbaycanda "Samsun", "Trabzon" və "İtiyarpaq" kimi qiymətli tütün növləri əkilir. Lakin yerli siqaret fabrikləri naməlum səbəbdən amerikan tütününün idxalına üstünlük verərək yerli məhsulu qəbul etmədiklərindən bu qiymətli təbii sortlar ucuz qiymətə qonşu Gürcüstana satılır.

Bunun nəticəsində ölkəmizdə yerli imkanlar ola-ola xeyli valyuta xaricə axır. Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, ildə 100 milyon dollarlıq tütün və tütün məmulatı idxal olunur. Ölkə üzrə tütün məmulatlarını dövriyyəsi isə 200 milyon manat civarındadır.Təkcə bu rəqəm yerli tütünçülüyün tənəzzülü ilə hər il nə qədər böyük gəlirdən məhrum olduğumuzu anlamaq üçün kifayət edir. Bu fakt tütünçülük kimi gəlirli bir sektorun mümkün qədər tez müddətdə bərpasının vacibliyini göstərmək üçün kifayət edir.

Ekspertlər hesab edir ki, əgər bu sahəyə yetərli diqqət ayrılsa, yaxın perspektivdə hazırki istehsalı azı 10 dəfə artırmaq üçün real imkanlar vardır. İlk növbədə daxili bazarı tam təmin etmək, sonrakı mərhələdə ixrac etmək olar.

O ki qaldı, tütünün sağlamlığa zərərinə, bəli ən zərərli məhsullardandır və istifadəsi məsləhət deyil. Lakin o bu o demək deyil ki, bu sahədə monopoliya yaratmaq, tütün istifadəçilərinin bu asılılığından istifadə edib onları soyub talamaq və müftə qazanc əldə etmək lazımdır. İndiki qidaların 90 faizi-GMO və süni kimyəvi maddələrdən ibarətdir və ən azı siqaret qədər sağlamlığa zərərlidir, bu hesabla onları da qızıl qiymətinə satmaq lazımdır. Bir sözlə, tütünçülük sahəsi ziddiyyətli sahədir. Onu ya tam ləğv etmək lazımdır, ya da bu sahədə düzgün tənzimləmə aparmaq.

ARAŞDIRMA

*Elçin Bayramlı*



# Ermənistan yenə də HİMAYƏDAR AXTARIŞINDA

Ermənistanın müstəqil şəkildə qərar vermək əzminin olmadığı, həm də bu ölkənin işğalçılıq siyasətindən əl çəkmədiyinin hamı şahididir və hələ də münaqişənin həllində İrəvanın hansısa ölkələrin dəstəyinə boş yerə ümid etdiyi də göz önündədir. Ona görə boş yerə ümid edildiyi qənaətindəyik ki, çünki işğalçı ölkənin maraqları heç bir ölkə üçün önəmli deyil, ola da bilməz və əgər Fransanın timsalında hansısa bir ölkə ermənipərəst mövqedən çıxış edirsə, deməli, öz maraqlarını həyata keçirmək niyyətindədir və bunun üçün Ermənistanın özündən istifadə olunur. Özünə himayədar axtaran İrəvanın özünün alət olduğu ortaya çıxır.

Fransanın vaxtaşırı olaraq Ermənistanın təəssübkeşi kimi çıxış etməsi bu ölkənin regiona maraqlarından, eləcə də öz ölkəsində seçkilərə təsir etmək imkanında olan erməni lobbisini ”zərərsizləşdirmək” niyyətindən irəli gəlir. Doğrudur, Fransa da bir işğalçı dövlət kimi Ermənistandan fərqlənməyə bilər, amma rəsmi Parisin ”erməni təəssübkeşliyi” İrəvanın absurd iddialarını reallaşdırmaq niyyətinin olması demək deyil, çünki ermənilərin nə ideyaları, nə də özləri Fransa üçün heç bir məna belə kəsb edə bilməz. Ermənistan Fransa üçün ”yağlı tikə” də hesab olunmur, ona görə ki, səfalət içərisində olan bir ölkə hərhansı Avropa ölkəsinin diqqətini belə cəlb edə bilməz. Heç Rusiya üçün də Ermənistan maraq dairəsində olan bir ölkə deyil. Qlobal, yaxud regional layihələrdən kənarda qalan, heç bir faydalı, təbii ehtiyatı olmayan, tərəfdaşlıq üçün hansısa töhvə verə bilməyən, özü də möhtac durumda qalan, tənəzzüldə olan və rüsvayçı şəkildə məğlub duruma düşən bir ölkə Moskvanın nəzərində belə olmaz axı. Tərəflər arasında razılaşmaların əldə edilməsi prosesində Rusiyanın iştirak etməsi belə, Qafqazda sülhün olub-olmamasına deyil, sülhdən nə əldə edəcəyinə marağının olduğu deməkdir. Bir sözlə, bu vaxta qədər rusları özlərinə böyük qardaş hesab edən ermənilərin istər rus qardaşlarını, istərsə də fransız bacılarını himayədar hesab etmələri onların böyük yanlışlığıdır.








”Avropa İttifaqı missiyası nəinki faydasızdır, həm də regiona yeni çağırışlar gətirir”, deyə Praqada bəyan edən erməni baş nazir Nikol Paşinyanın ifadələrindən belə məlum olur ki, Ermənistan cəmiyyəti bu yaxınlarda öz ərazisində məskunlaşan Avropa İttifaqının uzunmüddətli missiyasının fəaliyyətindən də narazıdır. Maraqlıdır, sözügedən missiyanın fəaliyyəti niyə Ermənistanı qane etmir? Ümumiyyətlə, erməni cəmiyyəti nə gözləyirdi bu missiyadan? İndi İrəvanın istəkləri ilə missiyanın fəaliyyəti arasında uyğun gəlməyən nədir ki, erməni baş nazir belə aqressiv şəkildə narazılığını bildirir? Axı həmin o missiyanı kimsə məcburi şəkildə Ermənistana göndərməmişdi və sirr deyil ki, öz ərazisində Avropa İttifaqı missiyasının yerləşdirilməsi ideyasının müəllifi belə Ermənistan tərəfi özü olub. Özü də nə Azərbaycanın, nə də Rusiyanın razı olub-olmaması soruşulmadan belə ermənilər buna can atıblar. Elə isə, indi niyə erməni baş nazir belə ”giley-güzar” edir? Təbii ki, burada bir paradoks var və bu da səbəbsiz ola bilməz. Səbəb də odur ki, himayədar axtarışında olan ermənilərin Avropa Missiyası barədə xam xəyallarının, arzularının puç olduğu ortaya çıxıb deyə onlar belə qənaətdədirlər. Artıq ermənilər onlar üçün acı olan həqiqətləri görmək, qəbul etmək məcburiyyətində qalıblar. Bu həqiqətlər də ondan ibarətdir ki, Avropa Missiyası heç də Ermənistanın maraqlarına xidmət etmək niyyətində deyil və bunun erməni cəmiyyətində necə rezonans doğurduğu Paşinyanın ifadələrindən bəlli olur.

Sözsüz ki, tarix boyu ermənilər, daha dəqiq desək, haylar kimlərinsə himayəsi altında olublar, başlarının üstündə hər zaman bir ”ağa”, bir himayədar olub və heç zaman müstəqil olmayıblar. Ümumiyyətlə, hayların bir dövlətçilik ənənələri də yoxdur ki, bunun əksini fərz edə, söyləyə bilsinlər. Mifləşdirdikləri də özlərinin uydurduqları yalanlardır və bu da onların dövlətçilik dəyərlərinin olmaması kompleksindən irəli gəlir. Özünü erməni xalqı kimi təqdim edən köçəri hay tayfası tarix boyu bir yerdən başqa bir yerə köçürülüblər, vətənsiz olublar və məhz vətənsizlik kompleksinə, eləcə də heç zaman dövlət qura bilməmələrinə görə də, yeni ”görməmişlikləri” fonunda onlar üçün ruslar tərəfindən hədiyyə olunan Ermənistan dövləti ilə kifayətlənə bilmirlər. Yenə də Azərbaycan ərazilərində özlərinə daha bir dövlət qurmaq arzusuna düşüblər deyə bu arzularını gerçəkləşdirmək üçün ötən əsrin sonlarında bizə məxsus olan torpaqları işğal etməyə qalxıblar və 30 il ərzində həmin əraziləri işğal altında saxlayıblar ki, ikinci bir erməni dövləti qursunlar. Görməmişlikləri fonunda qondarma bir dövlətin olduğunu bəyan da ediblər, halbuki heç yerdə, heç Ermənistan tərəfindən belə tanınmayıb. Əlbəttə ki, bunlar olduqca gülünc və absurd görünür, amma bu gülünclüyü ermənilər qəbul ediblər, çünki hər zaman kimlərinsə himayəsinə sığınacaqlarını güman ediblər.

Bir zaman çar Rusiyasının köməyi ilə Azərbaycan ərazilərində məskunlaşan haylar elə rusların köməyi ilə də sonradan dövlət qurmaq missiyalarını həyata keçirə bildilər və bir növ elə zənn etdilər ki, onlar nə vaxt, harada istəsələr dövlət qurmaq ”həvəsinə” düşsələr kimsə onlara köməklik, himayədarlıq etməlidir. İndi bu mənada acgözlükləri, xam xəyalları fonunda hansısa bir himayədar tapmadıqda buna alışa bilməmələrinin də səbəbi bəlli olur. Həm də bəlli olur ki, onlar niyə himayədar axtarışından əl çəkə bilmirlər. Bir zaman Rusiyadan, sonra Fransadan, ardınca da Avropa İttifaqından himayədarlıq uman ermənilər hələ də dərk edə bilmirlər ki, heç kim onlara borclu deyil. Dərk edə bilmirlər ki, onların Azərbaycan torpaqlarında məskunlaşdırılması belə rusların maraqlarına xidmət edib deyə baş tutub. Düzdür, bundan, rusların maraqlarından ermənilər yaxşıca istifadə edə, faydalana biliblər və bizə məxsus olan əraziləri ələ keçiriblər, hansıki, həmin ərazilər indi Ermənistan torpaqları kimi xəritəyə düşüb, amma bu, o demək deyil ki, ruslar bunu onlar üçün ediblər. Xeyr, əsla belə deyil.

Ruslar bölgədə öz maraqlarını təmin etmək, mövcudluqlarını qorumaq üçün hayları bir zamanlar alət etmişdilər və bu alətdən vaxtaşırı istifadə etmək üçün həmin ərazilərdə onları məşkunlaşdırmışdılar. Məskunlaşdırmışdılar ki, istədikləri vaxt bölgədə qarışıqlıq, təxribat salmaq üçün haylardan istifadə etsinlər, axı bu cür qarışıqlıq salmaq xislətlərinə bələd idilər. Elə sonralar da ermənilərə bu məqsədlə dəstək göstərildi və onlara alət olmaları müqabilində müəyyən şanslar da verildi, hansıki bunun hesabına torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlaya bildilər. Amma bu, o demək deyil ki, bundan sonra da hansısa dövlət, hansısa xalq ermənilərin maraqlarına xidmət etməli, onlar üçün çalışmalı, onları öz himayəsi altında saxlamalıdır. İndi erməni cəmiyyəti bunu dərk etməkdə, yaxud qəbul etməkdə çətinlik çəkir, amma çətin də olsa ermənilər qəbul etməlidirlər ki, çirkin niyyətlərini reallaşdırmaları üçün bundan sonra himayədar axtarışları nəticə verən deyil. Çünki nə zaman o zamandır, nə də Azərbaycan müstəqilliyinin bərpa edildiyi ilk illərdəki ölkə deyil, qüdrətli dövlətdir və öz haqlarını, hüquqlarını, özünə məxsus olanı qorumaq, müdafiə etmək əzmindədir.

Gah Qərbə, gah Rusiyaya meyil edən, hətta bunu nümayişkəranə şəkildə edən ermənilər bəzən də amerikalıların himayəsinə ümid edirlər. Sözsüz ki, ABŞ himayəsində olmaq haylar üçün çox böyük məqam hesab olunur, amma Ağ Ev erməniləri heç də öz öhdəsinə götürmədiyini çox incə şəkildə onlara başa sala bilib. Başa sala bilib ki, Amerikanın da öz maraqları var. Əslində, ermənilər çoxdan bilməli idilər ki, indiki halda Cənubi Qafqazda sülhün təminatı istiqamətində Vaşinqtonun səyləri həmin regionda Rusiya və İranın təsirlərini də, mövcudluqlarını da minimuma endirmək niyyəti iləidir. Bu səylərin ermənilərə heç bir aidiyyatı yoxdur və onlara görə deyil. Bir sözlə, ABŞ hansısa təkliflərlə çıxış edirsə, öz maraqlarını nəzərə alaraq çıxış edir və əgər ermənilər hər dəfə Ağ Evin təkliflərini gördükləri zaman elə zənn edirlərsə ki, himayədar tapıblar, bərk yanılırlar və yenə də xam xəyallara düşmüş olurlar. Bu xam xəyalların isə onları uçuruma apardığı dəfələrlə öz təsdiqini tapıb.

***İnam Hacıyev***

# Çörəyi ver çörəkçiyə, xəstəliyi də üstəlik...

Ağ çörəyi öz rasionundan çıxaran adam yalnız bir şey itirə bilər - xəstəlik!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*







Son illərdə ən çox müzakirə olunan mövzu çörəkdir. Tez-tez efirdə müzakirə edilir, mətbuatda haqqında yazılır, zərərləri, giogoyenik qaydalar çərçivəsində istehsalı, tərkibi barədə araşdırmalar hazırlanır. Həkimlər də bu məsələdə fərqli düşüncədədir, bəziləri çörəyin bağırsaq florasına zərər verdiyini, siqaret kimi zərərli vərdiş olduğunu düşünür, bəzi həkimlər isə çörəyin faydalı karbohidrat mənbəyi olduğunu və çörəksiz qidalanmanın orqanizmdə başqa problemlər yarada biləcəyini iddia edirlər.

Bir qisim həkim də ağ çörəyin yerinə kobud üyüdülmüş undan hazırlanan qara çörəyə üstünlük verilməsini müdafiə edir. Sirr deyil ki, karbohidratların yüksək miqdarda istehlakı çəki artımına səbəb ola bilər. Çörək diabet, ürək xəstəliyi və bir çox xroniki xəstəliklər riskini artıra bilər. Bununla belə, çörəyin qida profili onun növündən asılıdır. Kobud üyüdülmüş, kəpəkli, qara unun çörəyi kimi lifli çörəklər daha yüksək qida dəyərinə malikdir və artıq çəkiyə səbəb olmur.

### Çörək zəruridir, yoxsa gərəksiz?

Süfrəmizi onsuz təsəvvür etmirik, alanda cüt-cüt, növbənöv alırıq, azalmasını az qala faciəyə çeviririk. Daha çox müsəlman ölkələrində insanların əsas qidası olan çörək süfrələrimizin "olmazsa olmaz"ıdır. İstənilən yeməyin yanında çörək yeməsək, özümüzü doymuş hesab etmirik. Bir çox Avropa ölkəsində isə buğdadan hazırlanan ağ çörək zəruri qida növləri sırasından artıq çoxdan uzaqlaşdırılıb. İndi onun yerini süfrədə ya kobud üyüdülmüş undan hazırlanan kəpəkli çörək, ya qarğıdalı unundan hazırlanan və "cad" adlandırılan körək, ya da çovdar çörəyi alır.

İndi dünyanın ən məşhur alimləri, qidalanma ekspertləri ümumi bir nəticəyə varıblar- bu qədər işçi qüvvəsi, elektrik enerjisi sərf edib, zəhmət çəkib istehsal olunan çörəyi yeməklə insan öz orqanizminə ciddi zərər verir. Ekspertlər deyir ki, çörəyi qida rasionundan çıxaran insan onunla birlikdə bir çox xəstəliyi də həyatından qovmuş olur.

Ümumiyyətlə, sağlam həyatın sirri 3 ağ qidadan uzaq durmaqla başlayır- un, şəkər və duz. Əksəriyyətimiz adətən ağ çörək istehlak edirik. Sadə bir karbohidrat olaraq xarakterizə edilən ağ unun insan orqanizminə, xüsusən də beyin sağlamlığına bir çox zərərləri olduğu elmə çoxdan məlumdur. Ağ un daha da ağ görünməsi üçün müxtəlif proseslərə məruz qalır. Dəyirmanda üyüdülərkən buğdanın ən qiymətlisi olan rüşeym və buğda kəpəyi ələnərək tullantı kimi xaric edilir. Bununla da buğdanın tərkibindəki vitaminlər, minerallar, omeqa 3 və omeqa 6, doymamış yağ turşuları, zülal və karbohidrat dəyərləri də atılmış olur. Bütün qida xüsusiyyətlərindən məhrum olan ağ unun başqa bir qüsuru da sizi doyumluluq hissindən uzaqlaşdırması, tez-tez qida ehtiyacı duymanıza və nəticədə kökəlmənizə səbəb olmasıdır.

### Çörəyin içində nələr var?

Çörəksiz həyat təsəvvür edə bilməyənlər sayı heç də az deyil. Bunun ən mühüm səbəbi çörəyin tərkibindəki şəkərdir ki bu da asılılıq yaradır. Hazır çörəklərdə müxtəlif qatılaşdırıcı maddələr və fruktoza var. Bu kimyəvi maddələr asılılığa səbəb olur. Taxıl məhsulunun ən böyük qüsuru odur ki, onun tərkibindəki amin turşularının tarazlığı qeyri-mütənasibdir. Dənli bitkilərdən hazırlanmış qida, zülal tarazlığını pozduğundan orqanizm daha çox zülal tələb edir. Onu həzm etmək və qana sormaq üçün isə, çoxlu vitamin tələb olunur. Həzmetmə orqanları xəstə olanlar öz menyusundan buğdanı və arpanı çıxartmalıdır. Mütəxəssislər məsləhət görür ki, çörəkdən imtina edə bilməyənlər heç olmasa kobud üyüdülmüş undan hazırlanmış çörək yeməlidirlər. Dietoloq-həkimlər hesab edir ki qida dəyərinə görə ən yaxşısı çovdar çörəyidir.

Mütəxəssislər deyir ki, çörəyin tərkibi yalnız 4 predmetdən ibarət olmalıdır - un, duz, su və maya. Amma indi çörəyin daha uzunömürlü olmasını təmin etmək üçün çörəyin tərkibinə maya əvəzinə xüsusi köpürdücülər vurulur. Çünki maya vurulan çörəyin köhnəlmə və kifլənmə ehtimalı çoxdur. Eyni zamanda, qara çörək istehsalı ilə məşğul olan müəssisələrin bəzilərinin çörəyin rəngini qaraltmaq üçün təhlükəli kimyəvi maddələrdən istifadə etdikləri barədə bəzi məlumatlar da var.

### Maya o maya deyil

Ötən əsrin 40-cı illərinə kimi çörəkdə tərkibcə başqa maya istifadə olunurdu. Ona görə müharibə və aclıq dövrünün insanları çətin şəraitə baxmayaraq daha sağlam və uzun ömürlü idilər. Həkim nədir bilməzdilər. O mayanı "xmelevim" adlandırırdılar. O, insanın simbiotik mikrflorasını dağıtmırdı, faydalı bakteriyaları öldürmürdü, xəmir bu mayada 1 sutkaya gəlirdi. Sonrakı illərdə çörək istehsalı artdığından istehsal prosesini asanlaşdırmaq üçün hazırkı termofil maya icad olundu ki, bu maya ilə yoğrulan xəmir 1 saata gəlir.

Ekspertlər hesab edir ki, hazırkı maya insanın simbiotik mikroflorasını dağıdır, yoğun bağırsaqda faydalı bakteriyaları öldürür, bununla da vitamin, amin turşuları, bioloji aktiv maddələrin sintezi zəifləyir. Mayadan 500 növ göbələk yaranır ki, onun 30-u insan üçün ölümcüldür. QOST təlimatına görə çörəkbişirmə müəssisələrində istifadə olunan preslənmiş mayanın hazırlanmasında solod, kartof nişastası, duz, ammiak, ammoniy, fosfomin, kaliy, karbamid, maqniy, süd turşusu, tiamin bromid, biotin, köpüklən-dirici, plastifikator, formalin, emulqator, poliqliserin efiri, soda, bor turşusu, hidrogen peroksid kimi maddələrdən istifadə olunur.

Ümumiyyətlə, qeyd etmək vacibdir ki, ən faydalı un qardalıdan əldə edilən undur. Qarğıdalının tərkibində zülal çoxdur. Əvvəllər qarğıdalı unundan "cad" adlandırılan çörək hazırlanırdı, amma bu ənənə ucqar kəndlərdə itib-batdı. Qarğıdalının yapışqanlığı azdır, dolayısı ilə qarğıdalı unundan hazırlanan çörək qırılır, forma vermək çətinləşir. Bu undan insan orqanizminə çox xeyirli çörək alınır. Amma təəssüf ki, son illər bütün dünyada GMO qarğıdalı geniş yayıldığından bu xeyirli qida zərərli qidalar siyahısına düşüb.

### Buğdanın cavanlaşdırma xassəsi var

Məsələyə ədalətlə yanaşsaq taxıl birkilərini tamamilə inkar etmək ədalətsizlik olardı. Məhşur alimlər buğdanın istifadəsinin çiy şəkildə olmasının daha faydalı olduğunu deyirlər. Buğda adi qaydada cücərdildikdə effektivliyi birə beş artır. Məsələn, bu sahə ilə 20 ildən artıq məşğul olan İsveçrə həkimi K.Şmidtin öz üzərində apardığı təcrübədən bir parça: "Mənim 54 yaşım olanda səhər yeməyində buğda dəni yeməyə başladım. Bir neçə aydan sonra özümü əvvəllərdə olduğundan daha yaxşı hiss etməyə başladım. Çal və seyrək saçlarım sıxlaşdı, elastikləşdi, görmə qabiliyyətim yaxşılaşdı. İndi 75 yaşında mən özümü əla hiss edərək, heç də gənclik illərindəkindən az məhsuldarlıqla çalışmıram".

100 qr. buğda dəni cücərtisində 25 milliqram E vitamini var. E vitamini tərəvəzlərdə 1,5-2 milliqram, paxlalılar fəsiləsindən olan bitkilərin dənində isə 5 milliqramdır. Müəyyən edilib ki, yaşlı adamın E vitaminə 1 sutkalıq tələbatı 20-30 milliqramdır. Xalq təbabəti ilə məşğul olan həkimlərin bir çoxu buğda dəni cücərtisində bədənin möhkəmləndirilməsi üçün istifadə edirlər. Buğda dəni cücərtisi ilə müntəzəm olaraq qidalandıqda orqanizm cavanlaşır, əsaslı sürətdə yaxşılaşır.

Xroniki xarakterik vərəm, bronx qovşaqları xəstəlikləri, ekzema, mədə xorası, daş yaranması və s. digər dava-dərmanın köməyi olmadan buğda dəni cücərtisi ilə müalicə olunur. İsveçrəli həkim K.Şmidt uzun illərin tədqiqatından sonra belə nəticəyə gəlib ki, buğda dəni cücərtiləri ilə qidalanma orqanizmin bütün növündən olan hüceyrələrinin müntəzəm olaraq bərpasına, həmçinin əsəb sistemi hüceyrələrinin möhkəmlənməsinə olduqca müsbət tə'sir göstərir.

***Lalə Mehralı***

SON SƏHİFƏ

19 may
2023-cü il

## Batan əmanətlərin taleyi necə olacaq?

*İQTİSADÇI AYDINLIQ GƏTİRDİ*



"Qanunvericiliyə əsasən hər bir əmanət
sığortalanır. Bu əmanətin faizi illik 12
faizdirsə 100.000 manatadək əma-
nətləri əhatə edir. Hazırki halda "Günay Bank" bağ-
lanıbsa, həmin vəsaitlər Dövlət Əmanətlərin Sığorta
Fondu tərəfindən geri qaytarılacaq". Bu sözləri SİA-ya açıq-
lamasında iqtisadçı ekspert Eyyub Kərimli deyib.
Onun sözlərinə görə, əmanətçilərin müqavilə şərtlərinə riayət etmək mümkün olmayacaq:""Gü-
nay Bank"ın ümumi 250 milyon manat əmanəti olub. Onlardan 38 milyon yarımı 100.000 manatadək
olan məbləğlərdir. Bir müddət çəksə belə geri ödəniləcək.
Onu da qeyd etmək lazımdır ki, əmanətçilərin müqavilə şərtlərinə riayət etmək mümkün olmaya-
caqdır. Belə ki, hansısa şəxs daha uzun müddətə əmanət qoyubsa banka, onların bu gündən faizinin
hesablanması dayanır. Müqavilədə şərtlənən məbləğ alınmayacaq. Sadəcə bugünə qədər hesabla-
nan vəsait kompensasiya ediləcək".
Eyyub Kərimli sözlərinə belə davam edib: "70 milyon manatın aqibəti isə sual altındadır. Çünki
qanunvericilikdə bununla bağlı hələ heçnə nəzərdə tutulmayıb. Məsələ hələlik hüquqi müstəvidə
məhkəmələr vasitəsilə həll olunacaq. Bankın əmlakı, yaxud qalıq balansı ilə pullar ödənilsə ödənilə-
cək. Əgər ödənilməsə, sözsüz ki həmin şəxslər zərər görəcəklər".

***Ayşən Vəli***

# Xəbər başlığı necə seçilməlidir?



*MEDİA EKSPERTİ AÇIQLADI*

"Elmi nəzəriyyələr jurnalistikaya aid bütün mövzular kimi, xəbərin tərtibatı, onun strukturu məsələsinə də aydınlıq gətirir. Başlıq, yarımbaşlıq, mətn kimi hissələr barədə yetərincə bilgilər verilir. Bunlar jurnalistikaya, mediaya aid ən ibtidai bilgilərdirlər. Jurnalistlər, KİV qurumları, ümumilikdə xəbər istehsalçıları və yayıcıları bu standartları bilməlidirlər". SİA xəbər verir ki, bu sözləri Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, xəbərin başlığı yığcam, həm də mətnə uyğun olmalıdır: "İnformasiyanın ümumi məzmunundan çıxış edərək formalaşdırılmalıdır. Başlıq onu oxuyan və ya dinləyən şəxsdə informasiyanın mahiyyəti barədə ilkin təəssürat formalaşdırmalıdır. Başlıqda ifadə olunan ilkin informasiyadan sonra oxucu qərar verir ki, onun davamını oxumağa dəyərmi, ya yox".

M.Ələsgərli çox təəssüf ki, bəzi KİV qurumları, xəbər istehsalçıları bu kimi təməl prinsipləri pozurlar, həm də çox intensiv şəkildə: "Biz çox tez-tez müşahidə edirik ki, xəbərin başlığında ifadə olunan ilkin informasiya ilə mətndə ifadə olunanlar arasında fərqliliklər mövcuddur. Bu, qeyri-peşəkarlıq əlamətidir. Digər tərəfdən, qeyri-etikdir. KİV qurumunun, xəbər istehsalçısının bu cür davranışı ondan xəbər verir ki, sensassiya yaratmaqla, oxucunu aldatmaqla İP qazanmaq istəyir. Yəni, öz məqsədinə çatmaq üçün oxucunu, dinləyicini aldadır.

Bəzi xəbər saytlarının "Cavanşir Məmmədov toyda çıxış edərkən qəfil öldü" başlığı ilə yaydıqları xəbər də bu qəbildəndir. Oxucular ilk baxışdan söhbətin müğənni Cavanşir Məmmədovdan getdiyini düşünüb. Əslində xəbəri bu formada yayanlar özləri də bilirlər ki, yazdıqları başlıq çaşdırıcıdır, aldadıcıdır. Amma bunu bilərəkdən edirlər ki, müğənninin məşhurluğundan, izləyicilərinin çoxluğundan faydalanıb İP toplasınlar.

Təbii ki, bu da haqlı olaraq müğənni və onun yaxınları tərəfindən narahatlıq və narazılıqla qarşılanır. Təkcə müğənninin yaxınlarında deyil, KİV ictimaiyyətinin özündə də narazılıq yaradır. Çünki, belə davranış KİV-lərə qarşı etimadı azaldır. Ümumilikdə peşəkar jurnalistikaya ciddi zərbə vurur".

## Süd yuxu gətirir



"Yuxusuzluq bir çox zehni, fiziki və psixoloji problemlərdən irəli gələn haldır. Dünyada ən çox yaşanan sağlamlıq problemlərindədir". Bu sözləri SİA-ya açıqlamasında Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Onun sözlərinə görə, araşdırmalar göstərir ki, hər 3 nəfərdən biri yuxusuzluq problem yaşayır: "Bu baxımdan da, bir çox insanlar rahat yuxuya gedə bilmək üçün müxtəlif üsullardan istifadə edir. Bəziləri duş alır, yüngül yoqa hərəkətləri edir, bəziləri də 1 stəkan süd içir. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, 2 yaşından sonra orqanizmimizdə südü həzm edən fermentlərin ifrazı dayanır. Bu, ana südü daxil olmaqla bütün südlərə aiddir. Bu yaşdan sonra süd, sadəcə, öz içindəki mikroblar və bağırsaqdakı bakteriyalar vasitəsi ilə həzm olunur". Asim Vəliyev sözlərinə belə davam edib: "Süddə yuxunu gətirən müxtəlif amin turşuları var. Molekulyar səviyyədə süddə olan triptofan yuxu gətirici xüsusiyyətə malikdir. Biz süd içərək, yumurta, hinduşka əti, balıq əti, yer fındığı kimi qida maddələri qəbul edərək triptofan qəbul etdikdə, orqanizmimiz yuxu gətirən hormonları ifraz edir. Bu baxımdan triptofanla zəngin qida maddələrini qəbul etmək rahat yuxuya getməyimizə kömək edə bilər. Ancaq sadəcə 1 stəkan süd içərək orqanizmin rahat yuxuya keçməsi üçün lazım olan triptofan miqdarını ala bilmərik".

***Ayşən Vəli***



# Qvardiolanın gizli mesajı ortaya çıxdı!

Futbol üzrə UEFA Çempionlar Liqasının yarımfinal qarşılaşmasında Madrid "Real"ını darmadağın etməklə finala adlayan "Mançester Siti"də qələbə sevinci yaşanır. Mançester təmsilçisinin qələbəsi həm də maraqlı bir faktın ortaya çıxması ilə də yadda qalıb. Belə ki, keçmiş futbolçu Rio Ferdinand bu qarşılaşmadan öncə baş məşqçi Pep Qvardiolanın ona göndərdiyi mesajı açıqlayıb. "Qarşılaşmadan əvvəl Qvardiola mənə mesaj atmışdı. Yazırdı ki, "bu matçı biz qazanacaqıq. İki il əvvəl "Real"ı məğlub etmişik, yenə də qazanacayıq"-belə yazdı mənə."

## Psixoloq seçərkən bunlara diqqət edin!



Psixologiya insan davranışlarının və psixi proseslərin elmi tədqiqidir. Hər insanın həyatının müəyyən dönəmində tək başa çıxa bilməyəcəyini hiss etdiyi depressiyalara düşmə ehtimalı var. Məsələn, siz artıq özünüzü tanıya bilməyəcəyinizi düşünürsünüz və ya çox düşünməkdən yata bilmirsiniz. Bundan əlavə, sizi narahat edən şeylər ola bilər. Bu halda heç nədən həzz ala bilməyə və ya mübarizə aparmaq üçün güc tapa bilməyəcəksiniz. Bununla əlaqədar problemlər yaşaya və onların öhdəsindən gələ bilməyəcəyiniz nöqtəyə gəlib çıxa bilərsiniz. Belə hallarda da mütəxəssis dəstəyinə ehtiyacınız ola bilər. Bəs psixoloq seçərkən nələrə diqqət edilməlidir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

**Seçəcəyiniz psixoloqun akademik göstəricilərinə baxın**

Özünü psixoloq kimi təqdim edən, amma psixoloq olmayan bir çox insan var. Ona görə də müalicə almağa yaxın hiss etdiyiniz psixoloqu axtarın. Onun hansı platformalarda olduğunu öyrənin. Onun məzun olduğu universitetləri araşdırıb tapın.

**Seçdiyiniz psixoloqun klinik psixoloq olması üstünlükdür**

Klinik psixoloqlar müştərilərə qayğı göstərmək və terapiya tətbiq etmək səlahiyyətinə malik olan psixoloqlardır. Eyni zamanda, klinik psixoloqlar psixoloji xəstəliklər və müalicə üsulları ilə daha çox tanış olurlar. Bu səbəbdən də ətrafınızda klinik psixoloq varsa, onu seçmək daha məntiqli olardı.

Seçdiyiniz psixoloqla ilk görüşmə edin

Bir neçə baxışdan sonra hansı psixoloqu seçəcəyinizi dəqiqləşdirmək üçün telefonla bir neçə psixoloqdan məlumat alın. Ondan hansı müalicələrdən, hansı elmi metodlardan istifadə etdiyini, daha əvvəl probleminizlə bağlı müştərisi olub-olmadığını və bununla necə məşğul ola biləcəyinizi soruşun. Bu suallar müştərinin peşəkar səriştəsini göstərəcək. Eyni zamanda, psixoloqdan aldığınız enerjini analiz edin. Yaxşı enerji alsanız, müalicə almağı düşünə bilərsiniz.

**İnternetdə seçdiyiniz psixoloqu axtarın**

Psixoloqun yazılarını oxuyun və ya videolarına qulaq asın. Psixoloqun ümumi varsa çıxışına qulaq asın. Psixoloqun ümumi münasibətini təhlil edin.

Seçdiyiniz psixoloqla ilk görüşdən sonra özünüzü anladığınızı hiss etdinizmi?

Terapiyanın ilk məqsədi başa düşüldüyünü hiss etməkdir. İkinci məqsəd, qeyd-şərtsiz qəbul olunmağınızdır. Bu iki əsas məqsədi hiss edirsinizsə, terapiyaya davam edə bilərsiniz. Çünki bunlar terapiya üçün əvəzedilməz qaydalar kimi görülür. Bundan əlavə, terapevtinizin diqqəti, qarşılıqlı güvən hissi və terapevtinizə rahatlıqla özünüzü ifadə edə bilmə kimi meyarları da qiymətləndirə bilərsiniz.

Klinik psixoloq, psixoterapevt, seksoloq Təhmasib Cavadzadə: "Psixoloqun, ilk növbədə, diplomu olmalıdır. Həmçinin, magistr dərəcəsi vacibdir. Magistr dərəcəsi isə klinik psixologiya və ümumi psixologiya olmalıdır.

Bakalavr bitirmiş insan konsultasiya edə bilməz. Yaxud şəxs bakalavr üzrə təhsil alırsa və magistr təhsili almırsa, yenə də mümkün deyil. İndi psixoloqların çoxu xaricdə qiyabi oxuyur. Onlar heç universitet üzü görmür. Ya da başqa universitet oxuyub, sadəcə, təkmilləşmə kursuna gedib.

Psixoloqlarda təkmilləşmə olmalıdır. Ölkəmizin psixoloqlarında bu, o qədər də yoxdur. Həmçinin, psixoloqun praktikası və iş təcrübəsi olmalıdır. Elə psixoloq var ki, deyir "Mən bütün xəstəlikləri müalicə edirəm". Əgər bir insan hər şeyi müalicə edirsə, bu, onun profesionallıqdan bir qədər uzaq olmasını göstərir. İnsanlar buna diqqət etməlidir".

***Ayşən Vəli***

ARAŞDIRMA

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**